# RƏHMƏT VƏ ŞƏFQƏT PEYĞƏMBƏRİ MƏHƏMMƏD (s)

Kerim Uçar



KERİM UÇAR

Rəhmət və Şəfqət Peyğəmbəri

# MƏHƏMMƏD

Səllallahu ələyhi və alihi və səlləm

TBİLİSİ 2018

**Kitabın Adı:**

Rəhmət və Şəfqət Peyğəmbəri Məhəmməd (s)

**Yazan:**
Kerim Uçar

**Türkcədən çevirən:**
Bahar Məmmədova

**Redaktor:**

Akif Xansultanlı

**Kompüter tərtibatçısı**

Elmar Məmmədov

Gürcüstan Müsəlmanları İdarəsi

Almaniya Alulbeyt Müəssisəsi

2018

# Ön söz

Həmd Allaha məxsusdur ki, öyənlər onu haqqı ilə təriflməyə gücü yetməz, sayanlar nemətlərini sayıb qurtara bilməz, gecə-gündüz çalışanlar belə, haqqını olduğu kimi əda edə bilməzlər. Aləmlərə rəhmət və ümmətə nemət olaraq göndərilən Məhəmməd bin Abdullaha (s) salat və salam olsun. Yenə Allahın salat və salamı ümmətin imamı və mürşidi, Hz.Məhəmməd Mustafanın (s) varisi Əli bin Əbu Talibə (ə) və onun on bir haqq xəlifə və xüsusən aləmin xilaskarı, Qaim, Ali Məhəmməd, İmam Mehdi əleyhissəlama olsun.

Uca İslam Peyğəmbəri həm də, örnək həyatı, malik olduğu əxlaqi dəyərləri və mənəvi məqamlarına görə aləmlərə rəhmət olaraq göndərilmişdir. Uca Allah bu həqiqəti nazil etdiyi dəyərli kitabında belə ifadə edir:

[وَمَا اَرْسَلْنَاكَ إِلاَّ رَحْمَةً لِّلْعَالَمِينَ]

“Və biz səni ancaq aləmlərə rəhmət olaraq göndərdik[1]”.

Peyğəmbərimizin dövründə Ərəbistanda bir çox dinlərə, fərqli mədəniyyətlərə və anlayışlara bağlı icmalar var idi. Yəhudilər, xristianlar, sabilər, zoroastriyalar və bütpərəstlər hamısı birlikdə yaşayırdılar. Bundan başqa eyni inancı qəbul etmələrinə baxmayaraq, bir-birinə düşmən olan bir çox fərqli qəbilələr də vardı. Ancaq Peyğəmbərimiz hansı dindən və qəbilədən olursa olsun, hər kəsə şəfqətlə, səbrlə, dözümlülüklə və sevgiylə yaxınlaşır, və insanları böyük bir tolerantlıq içində dinə dəvət edirdi. Həzrət

[1]-Ənbiya, 108

Məhəmmədin (s) ətrafındakılara göstərdiyi bu gözəl davranış Quranda belə bildirilir:

"(Ya Rəsulum!) Allahın mərhəməti səbəbinə sən onlarla (döyüşdən qaçıb sonra yanına qayıdanlarla) yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər. Artıq sən onları əfv et, onlar üçün (Allahdan) bağışlanmaq dilə, işdə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən Allah (Ona) təvəkkül edənləri sevər[2]"!

Allah qulları arasında müsəlman və ya qeyri-müsəlman fərqi güdmədən müqəddəs İslam Peyğəmbərini (s) hər kəsə peyğəmbər olaraq göndərmişdir.

[قُلْ يَا أَيُّهَا النَّاسُ إِنِّي رَسُولُ اللّهِ إِلَيْكُمْ جَمِيعًا]

"(Ya Rəsulum!) De: "Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş peyğəmbəriyəm. (O Allah ki) Göylərin və yerin hökmü Onundur, Ondan başqa heç bir tanrı yoxdur. O, dirildir və öldürür. Buna görə də Allah, eləcə də Onun Allaha və Allahın sözlərinə (ayələrinə, nazil etdiyi kitablara) inanın və ümumi peyğəmbər olan Rəsuluna iman gətirin və ona tabe olun ki, doğru yolu tapa biləsiniz[3]!".

Rəsuli Əkrəm (s) hər kəsə bərabər, müjdələyici və Allahdan qoruxmağı tövsiyyəedici kimi gəlmişdir.

---

[2] Âli İmran, 159
[3] Əraf – 158

[وَمَا أَرْسَلْنَاكَ إِلَّا كَافَّةً لِّلنَّاسِ بَشِيرًا وَنَذِيرًا]

"Və biz səni bütün insanlara, ancaq müjdələyici və qorxuducu olaraq göndərdik[4]".

Peyğəmbərimizin ətrafındakıları dinə bağlayan və ürəklərini imanla isindirən, insan sevgisi, incə düşüncəsi və şəfqəti, bütün müsəlmanların əhəmiyyətlə üzərində dayanmaları lazım olan bir əxlaq üstünlüyüdür. Peyğəmbərimizin bütün bəşəriyyətə nümunə olan bu gözəl xüsusiyyətləri Tövbə surəsində belə bildirilir:

[لَقَدْ جَاءكُمْ رَسُولٌ مِّنْ أَنفُسِكُمْ عَزِيزٌ عَلَيْهِ مَا عَنِتُّمْ حَرِيصٌ عَلَيْكُم بِالْمُؤْمِنِينَ رَؤُوفٌ رَّحِيمٌ]

"(Ey ümmətim!) Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə (məşəqqətə) düşməyiniz ona ağır gəlir, O, sizdən (sizin iman gətirməyinizdən) ötrü təşnədir, möminlərlə şəfqətli, mərhəmətlidir[5]"!

İslam düşmənləri bütün güclərini səfərbər edərək tapdıqları hər fürsətdə bu mərhəmət, sülh və sevgi dolu dinin şəfqətli və mərhəmətli Peyğəmbəri Həzrət Məhəmmədə (s) təhqirlər yağdırır, o uca insanı vəhşi və müharibə tərəfdarı bir inanca sahib şəxs kimi təqdim etməyə çalışırlar.

Təəssüf ki, indiki dünya düzənində belə, İslam düşmənləri bütün texnoloji imkanlardan istifadə edərək, aləmlərə rəhmət

---

[4] Səba – 28
[5] Tövbə - 128

olaraq göndərilən Hz. Məhəmmədi (s) dini qılınc gücünə insanlara zorla qəbul etdirən (əsla) despot və qəddar bir insan portreti çəkməyə çalışırlar. Bu çirkin hücumlarını da təşkil etdikləri müxtəlif beynəlxalq məclislərdə və simpoziumlarda açıq şəkildə ifadə edirlər. Elə gün olmur ki, qərb dünyasında Peyğəmbərə bir hücum və qaralama kompaniyası olmasın. İslam dininin "andlı" düşmənləri əl-ələ vermiş, İslam dini və onun sevimli Peyğəmbərinə (s) bəslədikləri kin və nifrəti İslam dini haqqında məlumatı olmayan gənc nəslə peyvənd olunurmuş kimi səy etməkdədilər.

İslam və onun tarixi haqqında bir az məlumatı olan hər bir ağıllı insan və insaf sahibi Quranın İslam dininə və onun sevgili Peyğəmbərinin (s) əxlaqına, ədalətinə və insan sevgisinə nə qədər əhəmiyyət verdiyini anlayar.

[ادْعُ إِلِى سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ وَجَادِلْهُم بِالَّتِي هِيَ أَحْسَنُ]

"(Ya Rəsulum!) İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna (islama) dəvət et, onlarla ən gözəl surətdə (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə) mübahisə et. Həqiqətən, Rəbbin yolundan azanları da, doğru yolda olanları da daha yaxşı tanıyır[6]"!

Peyğəmbərimiz və onun həqiqi xəlifələrinin mövqeləri, həyatları və hökumətlərindəki qeyri müsəlmanlara qarşı göstərdikləri nümunəvi davranışlarını araşdıran hər kəs, İslam dininin nə qədər rəhmət və sevgi dolu bir din olduğunu görəcəkdir.

---

[6] Nəhl - 125

Həzrət Məhəmmədin (s) gətirdiyi İslam dininin qılınc və zorakılığa söykənən bir inanc olduğunu deyənlər, tarixi həqiqətlərdən ya xəbərsizdirlər, ya da İslama bəslədikləri düşmənçilik və kinlə Peyğəmbəri (s) qaralamağa çalışırlar.

Yaşadığımız müasir və moderin dünyada sözdə mədəniyyətlərin və ədalətin beşiyi sayılan ölkələrə, insan haqları müdafiəçilərinin özlərinin sahib çıxdığı ərazilərə göz atanda onların mərhəmət, sevgi və insani dəyərlərdən nə qədər məhrum olduqlarını açıq-aydın şəkildə görürük. Hər biri öz mənafe və maraqları istiqamətində ətrafındakı müdafiəsiz insanlara hücum edib, günahsız kütləlləri ortadan qaldıraraq əsl üzlərini və hədəflərini ortaya qoyurlar.

Digər tərəfdən, Peyğəmbərimizin (s) hökuməti dövründə bütün insanların din, dil və irq ayrı-seçkiliyi edilmədən hörmət və qardaşlıq çərçivəsində bir yerdə yaşadıqlarına şahid oluruq. Peyğəmbərimiz (s) hər təbəqədən olan insanla daim əlaqədə olmuş, ən üst səviyyədəki kimsələrdən, əsirlərə, kimsəsiz yetimlərdən, qadın və uşaqlara qədər hər kəslə görüşmüşdür. Bütün bu ictimai quruluşları, yaşayış tərzləri, xasiyyətləri, adətləri bir-birindən tamamilə fərqli olan insanlarla, hər sahədə yaxşı dialoq qurmuş, hamısının könlünü xoş tutmuş, hər birinə qarşı nəzakətli, anlayışlı, səbrli və gözəl bir rəftar göstərmişdir. Sevgi və mərhəmət Peyğəmbəri bununla da kifayətlənməmiş, öz ümmətini qeyri-müsəlmanlara qarşı hörmət və sevgiyə təşviq etmiş, onların haqq və hüquqlarını qorumağı tövsiyə etmişdir. Digər inanclara mənsub azlıqlara sərbəst rahat və dinc bir mühitdə öz inanclarına uyğun şəkildə ibadətlərini etmələrinə şərait yaratmışdır.

Sizə təqdim edilən bu kitabda məqsəd, Quran və sünnə işığında müqəddəs İslam dininin şəfqətli Peyğəmbərinin dil, din, irq və rəng ayrı-seçkiliyi etmədən bütün bəşəriyyəti mərhəmət, sevgi, şəfqət və məhəbbət damı altında topladığını və İslam düşmənlərinin haqsızca iddia etdiyi qılınc, zorakılıq və barbarlığa dayalı bir din olmadığını nümayiş etdirməkdir.

İnanırıq ki, kitab əhli müsəlmanlarla iç-içə olan, eyni məktəb, iş yeri, mənzil, məhəllə, qəsəbə, şəhər və ölkə bölüşən təmiz gənclik bu əsərdən istifadə edəcək və onlara şəfqət, mərhəmət Peyğəmbərinin və qeyri-müsəlmanlara İslamın həqiqi və nümunəvi davranışını, gözəl əxlaq və ideyasını izah edəcəklər.

Əlinizdəki bu kitab dörd hissədən ibarətdir:

1-Hz. Əlinin (ə) dilindən Peyğəmbərimizin (s) vəsfi;

2-Peyğəmbərin (s) real həyatında qeyri-müsəlmanlarla sülh içində yaşaması;

3-İslamda sülh;

4-Nəbəvi hədislərdə qeyri-müsəlmanlarla səmimi və yanaşı yaşamaq.

Ümid edirik ki, bu əsər, mərhəmət və sevgi ilə aşıb-daşan müqəddəs İslam dininin rəhmət və şəfqət Peyğəmbəri (s) yanında bizdən qəbul edilir, savabı qiyamət və axirətdə yolumuza nur və işıq olur.

**Kerim Uçar**

*İmam Rzanın (ə) Mübarək Doğum Günü*

*11 Zilkade 1432 / 08 oktyabr, 2011*

*Berlin-Almanya*

# BİRİNCİ BÖLÜM

## HƏZRƏT ƏLİNİN (Ə) DİLİNDƏN PEYĞƏMBƏRİMİZİN (S) VƏSFİ

İnsanlar üzərində doğruluq və gözəl əxlaq qədər heç bir şey təsirli deyil. Əməli dəvət həmişə şifahi dəvətdən daha təsirli olmuşdur. İnsanlar sözləri dinləyib doğruluğunu ölçənə qədər gözəl əxlaq sahiblərinin nümunəvi əməllərindən daha tez təsirlənirlər. Sevgili Peyğəmbərimiz (s) üstün şəxsiyyəti, etibarlılığı, insana dəyər verməsi, haqqı tələb etməsi, səbrli və dözümlü olması ilə ən gözəl nümunədir. Məhəmmədin ən əhəmiyyətli xüsusiyyəti, başqalarına təklif etdiyi nəsihətləri və əxlaq qaydalarını əvvəl öz həyatında, sonra da Quranın nəsihətlərini və qadağalarını həyatının hər anında tətbiq etməsidir. Bu səbəbdən Peyğəmbərimiz (s) bütün kamal və gözəllikləri özündə toplamış bir şəxsiyyətdir. Elə Qurani-Kərimin də Peyğəmbərin (s) gözəl əxlaqını nümunə kimi tanıtması bunun əyani sübutudur.

[لَقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ اللَّهِ أُسْوَةٌ حَسَنَةٌ]

“And olsun ki, Allahın Rəsulunda sizin üçün ediləcək ən gözəl bir nümunə var[7]”.

Buna əsasən, Həzrət Əli əleyhissalam gözəl əxlaq və nümunə arayanlara Peyğəmbərimizi (s) göstərərək onun hər bir sahədə kifayət olduğunu buyurmuşdur.

Həzrət Əli (ə) buyurmuşdur: -“Allah Rəsulu (s) sənə gözəl bir nümunə, bir dəlil olaraq kifayətdir[8]”.

---

[7] Əhzab - 21

Uca Peyğəmbərimiz (s) bütün sahələrdə bəşəriyyətə nümunə olmuş və qiyamətə qədər də nümunə və dəlil olacaqdır. Peyğəmbərimizin (s) özü sözünə uyğundu. Heç kimə istehzayla baxmaz və kimsənin qeybətini etməzdi. Kimsəylə küsüşməz, küslünü barışdırar, günahkarları əfv edərdi. Böyüklərə hörmət, kiçiklərə ülfət göstərər, yetimlərə, dul qadınlara və ehtiyacı olanlara çox acıyar, onlara əlindən gələn köməyi edərdi. Qadınların haqlarına çox diqqət edər, qonşu hüququna riayət edər, heyvanların hüquqları, onların saxlanılıb qorunmasında da böyük diqqətilə seçilərdi.

Şirindilli və gülərüzlü idi. Heç kimə pis söz söyləməz, pislik etməz, hamını dinləyir, kimsənin sözünü kəsməzdi. İnsanların gizli hallarını və qüsurlarını araşdırmaz, daim haqqı tutar, kimsənin günahını üzünə vurmazdı. Qarşılaşdığı kəslərə birinci salam verər, əllərini sıxar, hal və xatirlərini soruşardı. O, əsl həya, ədəb, səbr, cəsarət və şücaət nümunəsi idi. Həyatı boyu həmişə yaxşının, doğrunun və gözəlliyin yanında olmuş, pisdən, şərdən və çirkin şeylərdən son dərəcə çəkinmişdir. Buna görə də bəşəriyyətin də buna əməl etməsi ən düzgün və ideal seçimdir.

İmam Əli əleyhissalam buyurur:

"Tərtəmiz olan Peyğəmbərinə tabe ol; çünki onda gözəl nümunələr, söykənməli adama söykənəcək yerlər var. Allahın yanında bəndələrin ən sevgilisi, nəbiyə tabe olub onun yolunu tutan şəxsdir[9]".

---

[8] Nəhcül-bəlağə, xütbə: 160
[9] Nəhcül-bəlağə, xütbə: 160

Bəzi insanlar yalnız həyatın müəyyən sahələrində insanlara nümunə və rəhbər ola bilər. Ancaq həyatın hər sahəsində insanı səadət və qurtuluşa aparacaq qüsursuz və kamil nümunə yalnız Peyğəmbərimiz (s) və onun təmiz Əhli-Beytidir. Həzrət Əli əleyhissalam bu haqda belə buyurur:

"O, qurtulmuşların lideri, hidayətə çatanların bacarıq nümunəsidir. Parlayan bir ulduz, hər yana nur saçan işıq və alovlanan bir məşəldir[10]".

Bu günümüzün dünyasında bəşəriyyətin gözəl əxlaq və rəhbərə həmişəkindən daha çox ehtiyacı varkən, İslam Peyğəmbərinin bu uca əxlaq və nümunəvi şəxsiyyəti inkar ya da şüurlu olaraq gizlədilməsi son dərəcə düşündürücüdür.

Rəhmət və şəfqət Peyğəmbərinin görkəmli xüsusiyyətlərindən biri də vəhy edilməsi, qoruması və başqalarına çatdırmasıdır. Bununla əlaqədar olaraq Həzrət Əli əleyhissalam buyurur:

"Vəhyi qeyd edib, əhdini qorudu, əmrini tətbiq etdi[11]".

Uca İslam Peyğəmbəri (s) insanların güvənəcəyi, hər sahədə rahatlıqla riayət edəcəyi üstün bir insandı. Uca Allah onu insanlara xəbərdaredici və vəhyə əmin biri olaraq göndərdi. Peyğəmbərimizin (s) Quranda da dəfələrlə zikr edilən ən mühüm xüsusiyyətlərindən biri Allahın göndərdiyinə tabe olması, insanların əmrini gözləmədən, insanlardan çəkinmədən yalnız Allahın bildirdikləri və buyurduqlarına əməl etməsidir. Hətta onun zamanında yaşayan müşriklər və digər din mənsubları

---

[10] Nəhcül-bəlağə, xütbə: 94
[11] Nəhcül-bəlağə, xütbə: 72

Peyğəmbərdən öz maraqlarına uyğun müddəalar gətirməsini istəmişlər. Bu adamlar sayca və güc baxımından daha üstün mövqedə olmalarına baxmayaraq, Peyğəmbərimiz (s) Quranı və Allahın hökmlərini daim böyük diqqət və qətiyyətlə qorumuşdur. Bir ayədə Allah, Peyğəmbərimizin bu insanların tələblərinə necə cavab verdiyini bizlərə belə xəbər verir:

(Müşriklərə) ayələrimiz açıq-aydın oxunduğu zaman (qiyamət günü haqq-hesab üçün) Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər: "Bundan ayrı bir Quran gətir və ya onu dəyişdir!" - deyərlər. Onlara de: "Mən onu özbaşına (istədiyim kimi) dəyişə bilmərəm. Mən ancaq mənə gələn vəhyə tabe oluram. Əgər Rəbbimə asi olsam, (müsibəti) böyük günün (qiyamət gününün) əzabından qorxuram". De: "Əgər Allah istəsəydi, mən onu sizə oxutmazdım və Allah da onu sizə bildirməzdi. Mən ondan (Quran nazil ediləndən) qabaq sizin aranızda (qırx il) ömür sürmüşəm. ( Bu müddət ərzində məni doğru danışan bir adam kimi tanıyırsınız. Qırx yaşından sonra mən sizə necə yalan deyə bilərəm?) Məgər (Quranın mənim sözlərim deyil, məhz Allah kəlamı olduğunu) dərk etmirsinizmi?"[12].

Həzrət Əli əleyhissalam buna istinadən belə buyurmuşdur:

"Allah, Məhəmmədi (s) aləmlərə xəbərdarlıq etmək, çəkindirmək və endirdiyi hökmləri əmin bir halda qorumaq üçün göndərdi[13]".

---

[12] Yunus – 15-16

[13] Nəhcül-bəlağə, xütbə: 26

Şəfqət və mərhəmət Peyğəmbəri, ömrünün hər bir mərhələsində insanlar üçün ideal bir nümunə olmuşdur. Həzrət Əli əleyhissalam buyurur:

"Allah, Məhəmmədi (s) şahid, müjdələyici və xəbərdaredici kimi ümmətinə göndərib. Uşaqlığında insanların ən xeyirlisi, yetkinliyində ən görkəmlisiydi. Əxlaq baxımından təmiz olunmuşların ən təmiziydi[14]".

Allah Peyğəmbərinin (s) görkəmli sifətlərindən biri də sadə və dəbdəbəsiz bir həyat sürməsi idi. Çünki o uca şəxsiyyət özünü Allahın qulu olaraq görürdü.

"Şəhadət edirəm ki, Məhəmməd onun qulu və elçisi, qullarının görkəmlisidir[15]".

Kölənin Mövla və ağası qarşısında heç bir məqam və dəyəri yoxdur. Bundan dolayıdır ki, həyatının hər mərhələsində təvazökarlığını nümayiş etdirib. Xalqın içindən, ən kasıb təbəqəsindən olub onlarla bir bütün olmuşdur. Rəsulullah qədər mərhəmətli, onun qədər şəfqətli və incə ruhlu bir insan yer üzünə gəlməmişdi. Çünki yuxarıda da qeyd olunduğu kimi o, aləmlərə rəhmət olaraq göndərilmişdi. Həzrət Peyğəmbər (s) həmişə kasıb və kimsəsizlərlə birlikdə olmağı üstün tuturdu. Bir yerdə ki, cəmiyyətin müxtəlif təbəqələrinin toplanmış olduqlarını görəndə, əvvəl yoxsulların yanına gedər, onlarla birlikdə oturar, könüllərini alardı. Kasıb və kimsəsizləri həmişə qoruyar, onları himayə edirdi. Bununla da yetinməz, kasıblara, yoxsulluğun bütün

---

[14] Nəhcül-bəlağə, xütbə: 105
[15] Nəhcül-bəlağə, xütbə: 214

acizliyini və zillətini unutduracaq şəkildə yaxınlıq göstərərdi. Bilirsiniz ki, Peyğəmbərin (s) yaşayışı və ailə həyatı onlardan fərqli deyildi,  Yoxsullar və kimsəsizlərlə yerə oturub onlarla birlikdə yemək yeyərdi. O, həmişə sadə yaşamağı üstün tuturdu.

İmam Əli əleyhissalam O, uca şəxsiyyəti belə nəql edir:

"Allah Rəsulu (s) yerdə yemək yeyər, qul kimi oturardı. Ayaqqabısını özü təmir edər, paltarını özü yamayardı. Yəhərsiz, kəcavəsiz at və dəvədən istifadə edər, bəzi məqamlarda birini də arxasına mindirərdi[16]".

Bu rəvayətlər Peyğəmbərin nə qədər sadə və təvazökar bir həyata sahib olduğunu göstərir. O, başqaları kimi səltənət taxtını qurub, öz işini başqalarının çiyninə atıb təkəbbürlə Allah bəndələrini kiçildib əzməzdi. Əksinə, özünü insanların xidmətinə həsr etmiş və bununla da fəxr etmişdir. İdealı insanlığa xidmət etmək idi, xidmət etdirmək deyildi. Bu üzdən əlinə keçəni yeməz yedirər, özü içməyib ehtiyacı olana içirərdi. Böyüklüyünü qəbul edən insanların xoşbəxtliyi ilə xoşbəxt olur, kədərləri ilə də kədərlənirdi.

"Müsəlmanların dərdi ilə dərdlənməyən bizdən deyildir".- deyərək şikayətlənərdi.

Allah Rəsulu (s), könüllərin təbibi, insanların maddi və mənəvi xəstəliklərinin həkimiydi. Elm və hikməti Allahdan alırdı, hamıdan çox insanlara sevgi və şəfqət göstərirdi. İnsanların dərdini yaxşı tanıyardı, bu səbəbdən də onların zahiri və batini

---

[16] Nəhcül-bəlağə, xütbə: 160

xəstəliklərinin müalicəsindən bir an olsun qafil olmadı. İmam Əli (ə) Onun bu xüsusiyyətini belə söyləyir:

"O, (Peyğəmbər) dərdlərinə dərman tapmaq üçün tibbi məlumatı ilə xəstələrini axtaran bir həkimdir. Dərmanlarını hazırlamış, tibb ləvazimatlarını isitmiş, ehtiyac duyulduqda onlarla korlaşmış qəlbləri, kar qulaqları, dinməz dilləri yaxşılaşdırır. Qəflət və çaşqınlıq içində olanları dərmanları ilə yaxşılaşdırmaq üçün axtarıb tapırdı[17]".

Bu hədislərdən də göründüyü kimi Peyğəmbər (s) bu kimi xidmətlərində insanların öz ayağına gəlməsini gözləməzdi. Əksinə, sıxıntı və çətinliklərə sinə gərərək, xəstələrin qapısını çalar, onların maddi və mənəvi sıxıntılarına dərman edərdi.

İslam Peyğəmbərinin (s) insanların hidayət və səadətinə olan istək və arzusu haqqında Həzrət Əli (ə) belə buyurur:

"Onları ölüm gəlib çatmadan azadlıqlarının olduğu yerə sövq etdi. Yorğunları idarə edib, düşkünləri himayə edib və hamısını hədəflərinə çatana qədər beləcə işləyib çalışdı[18]".

O uca şəxsiyyətin bütün dərdi və düşüncəsi insanların doğru yolu seçərək səadətə çatmasıydı. Qayəsi onları cəhalətdən, əsirlik zəncirlərindən çıxarıb, xilas edib Allaha qul etmək idi. Hətta inamsız olaraq ölən birini görəndə dərindən kədərlənib məyus olardı. Hidayət və səadət ümidi olduğu kəsi hidayət etmədən buraxmazdı. O, "İnsanlara özlərindən daha şəfqətli və mərhəmətliydi" təbiri şişirtmə deyil, həqiqətin özüdür.

---

[17] Nəhcül-bəlağə, xütbə: 108
[18] Nəhcül-bəlağə, xütbə: 104

İmam Əli əleyhissalam buyurur:

“O, (Məhəmməd) öyüd vermək üçün çox çalışdı, doğru yolda gedib, onları hikmət və gözəl öyüdə dəvət etdi19”.

Dəyərli oxucular, şəfqət və rəhmət Peyğəmbərinin (s) çox qısa və müxtəsər olaraq Həzrət Əlinin (ə) dilindən tanımağa çalışdıq. İndi isə din və şəriətin qılınc və qaba qüvvəyə əsaslanan bir din olmadığını isbat etmək üçün, Peyğəmbərimizin (s) həyatında azlıq və qeyri-müsəlmanlara davranışını qısaca anladaq.

[19] Nəhcül-bəlağə, xütbə: 95

## İKİNCİ BÖLÜM

# QEYRİ-MÜSƏLMANLARLA SÜLH İÇİNDƏ YAŞAMAQ

Həzrət Məhəmmədin (s) həyat hekayəsi mənasına gələn "siyer" kəlməsi ərəbcə "sira" sözünün cəmidir. Peyğəmbərin həyatını (tərcümeyi-hal) izah etmək üçün istifadə edilən bir sözdür. Lüğətdə "sünnət, gedişat, hal-hərəkət, vəziyyət və s". mənalara gələn "siret"i, davranış və həyat tərzi kimi də yozmaq mümkündür[20].

Bu səbəbdən də Peyğəmbərimizin (s) həyatı ilə bağlı qələmə alınan tarixi əsərlərə "Yaşayişi Nəbi və ya Siyer-i Nəbi" adı verilmişdir. Bəlkə də tarixdə müsəlmanların ilk diqqət etdikləri və seçdikləri elm, "Siyer Elm"i olmuşdur. Bu elmlə məşğul olanlar yalnız Peyğəmbərimizin (s) davranış və həyat tərzini araşdırmaqla kifayətlənmişlər.

Uca Allah sevgili Peyğəmbəri (s) "gözəl əxlaq" mənasına gələn "Usve Hasen" kimi tanıtmışdır.

[لَقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ اللَّهِ أُسْوَةٌ حَسَنَةٌ لِّمَن كَانَ يَرْجُو اللَّهَ وَالْيَوْمَ الْآخِرَ وَذَكَرَ اللَّهَ كَثِيرًا]

"And olsun ki, Allahın Rəsulunda sizin üçün ediləcək ən gözəl bir misal var, O, sizə ən gözəl bir nümunə və Allahdan mükafat ümid bəsləyənə və axirət günündə mükafat ümid bəsləyənə və Allahı çox-çox yad edənə də ən gözəl bir nümunədir[21]".

---

[20] Lüğət Məktubu Dehhüda, c.8, s.1243.
[21] Əhzab - 21

İslama görə Allah Rəsulunun (s) əməllərinə  əməl edilməsi və nümunə götürülməli olan görkəmli bir şəxsiyyətdir. Fərdi, ictimai, iqtisadi, mədəni və siyasi sahələrdə bütün aləmə və insanlara gözəl bir nümunə və nurani bir bələdçidir.

İslam dini son səmavi din və şəriət dini olduğuna görə, Peyğəmbəri də bütün (s) zaman və məkanlarda, bütün insanlar üçün ideal və mükəmməl bir nümunə olmalıdır.

## PEYĞƏMBƏRİN (s) YAŞAYIŞINDA ŞƏFQƏT

Allah, mərhəmət və şəfqət duyğusunu yaratdıqlarının ən üstünü olan insanın yaradılışına da qoymuşdur. İnsanlara şəfqət və mərhəmət hissi ən yüksək səviyyədə Allahın hidayət rəhbəri olaraq göndərdiyi peyğəmbərlərdə olur. Allahın qəlblərinə yerləşdirdiyi bu şəfqət hissi ilə peyğəmbərlər bütün səylərini ümmətinin qurtuluşu yolunda sərf etmişlərdir. Ümmətinə sevgi və şəfqət məsələsində ən çox irəli çıxan Allah elçisi isə şübhəsiz, son peyğəmbər olaraq göndərilən və aləmlərə rəhmət olaraq göndərilən Həzrət Məhəmməddir (s). Hər gözəl xasiyyət və əxlaqda olduğu kimi Allah Rəsulu (s) sevgi və şəfqətdə də bir zirvədir. Şəfqət və sevgi, Peyğəmbərimizin ictimai həyatında çox əhəmiyyətli bir yerə sahibdir. Peyğəmbərin (s) sevgi və şəfqət dolu örnək həyatı, cəmiyyətin islahı və qeyri-müsəlmanlarla zamanında uyğunlaşması dinc bir mühit yaratmasına səbəb olmuşdur. Çünki bunun əksi olsaydı Allah Rəsulu (s) qətiyyən insanların haqq yolunda və vəzifəsinin kütlələrə yayılmasında bu qədər uğurlu ola bilməzdi. Uca Allah, Peyğəmbərin (s) şəfqət və gözəl əxlaqını Ali İmran surəsinin 159-cu ayəsində belə tərifləmişdi:

[فَبِمَا رَحْمَةٍ مِّنَ اللّهِ لِنتَ لَهُمْ وَلَوْ كُنتَ فَظًّا غَلِيظَ الْقَلْبِ لاَنفَضُّواْ مِنْ حَوْلِكَ فَاعْفُ
عَنْهُمْ وَاسْتَغْفِرْ لَهُمْ وَشَاوِرْهُمْ فِي الأَمْرِ فَإِذَا عَزَمْتَ فَتَوَكَّلْ عَلَى اللّهِ إِنَّ اللّهَ يُحِبُّ الْمُتَوَكِّلِينَ]

“Allahın mərhəməti sayəsində sən onlara qarşı mülayim davrandın. Əgər qaba, sərt ürəkli olsaydın, onlar sənin ətrafından dağılıb gedərdilər. Artıq sən onları əfv et. Onlar üçün Allahdan bağışlanmaq istə. İş məsələsində onlarla müşavirə et. Bir dəfə də qərar verib əzm etdinmi, artıq Allaha təvəkkül et, (ona güvən). Həqiqətən, Allah təvəkkül edənləri sevər[22]”.

Allah Rəsulu möminlər üçün hər məqamda rəhbər olduğu kimi, digər din nümayəndələri ilə dialoqda da bəşəriyyətə bir bələdçi olmuşdur. Digər din mənsublarına qarşı, bir insan olmaq etibarilə həmişə sevgi və mehribanlıq münasibəti göstərən Allah Peyğəmbərinin (s) həyatı, əvvəldən axıra hamı üçün örnəkdir. Tolerantlığın və əfvin mənbəyi, dinimizin qaynağı Quran olmaqla yanaşı, bu düşüncə coşğun bir çay halında Quranın izahatcısı isə Rəsulullahdan (s) axıb gəldiyini dərk edən müsəlmanların bu məsələdə fərqli düşünməsi mümkün deyil. Çünki, yanlış yozula biləcək bir fikir, Quranın, Rəsulullahın (s) şəxsiyyətinin və məqsədlərinin düzgün tanınmamsı deməkdir. Bu baxımdan, tolerantlıq və dialoq prinsip etibarilə Quran və sünnəyə əsaslandığından o müsəlmanın təbii əxlaqıdır və bu etibarlıq baxımından daimidir.

O, ən böyük tolerant insan olub Mədinədə əhli kitabla iç-içə yaşamış, hətta “müsəlmanam” dedikləri halda daim nifaq yara-

[22] Ali İmran - 159

dan, hər yerdə təmiz vicdanları bir-biriylə vuruşduran mərdimazarlarla belə razılaşma nöqtələri tapmış və onları mehribanlıqla yola gətirib bağrına basmışdır. Onda o qədər əngin bir şəfqət və mərhəmət vardı ki, andlı Qüreyş müşriklərini də onun bu xarakteri əhatə etmişdir. O müşriklər ki, Peyğəmbərimizə olmazın fiziki və ruhi işgəncələr vermək üçün, yoluna tikan töküb, uşaqların əlinə daş verib həzrəti daşladırdılar. Bununla da, kifayətlənməyib ona iman gətirənləri yandırıcı isti qumlar üzərinə qoyaraq işgəncə edirdilər.

Allah Rəsulu (s) bu sıxıntı və çətinliklərdən sonra, belə zorla qovulub çıxarıldığı vətəninə qalib olaraq qayıdır. Qazandığı hakimiyyətə və özünə edilən saysız-hesabsız ədalətsizliklərə baxmayaraq Peyğəmbərin (s) şəfqət və mərhəmətinin Məkkə fəthində nə qədər bənzərsiz olduğuna şahid oluruq.

Şəfqət və mərhəmət Peyğəmbəri (s) Məkkə fəthində səhabələrindən birinin bayrağı əlinə alıb "Bu gün qisas günüdür, bu gün şəxsiyyətlərin rəzil olacağı gündür", - sözlərini eşidəndə, bayrağı əlindən alaraq: - "Bu gün mərhəmət və şəfqət günüdür",- deyir. Sonra Kəbə ətrafında toplanan və qorxulu gözlərlə ona baxan məkkəlilərə:- "Mən sizə Yusif Peyğəmbərin qardaşlarına dediyini deyirəm: "Keçmişdə olanların hesabı soruşulmayacaq, hamınız azadsınız[23]",- buyurur.

Allah Rəsulu (s) bu gözəl davranışı ilə hər cür ifrata varacaq təhqirin və intiqam hisslərinin önünə keçdi. Rəhmət və sevgi dini

---

[23] Tarix Təbəri c.3, s.56

İslamın şəfqət və mərhəmət dolu Peyğəmbərini kobudluqda ittiham edənlərin bu məsələləri oxumalarını, ədalət və haqqa uyğun insani qərarlar vermələrini ümid edirik.

Peyğəmbərin (s) gətirdiyi dinin qılınc və kobud gücə əsaslanan din olduğunu iddia edənlərə deyirik ki: “Sizlər ya Peyğəmbəri (s) tanımamışsınız, ya da kin və nifrət hissləriniz gözlərinizi kor etmişdir”. O uca şəxsiyyətin şəfqət və mərhəmətlə qəzəbin qarşısını necə aldığını bundan daha canlı bir nümunə ilə göstərməyə gərək varmı? O, uca insan (s) kin və intiqamı kənara itələdiyi kimi, dostlarına və tamaşaçılarına da daima şəfqət və mərhəmətlə hərəkət etmələrini məsləhət görmüşdür.

## RƏHMƏT VƏ SEVGİ MÜJDƏÇİSİ

Uca Allah, Elçisini (s) geniş mərəhmətilə təchiz edib inanan və inanmayan cəmi insanlara nümunə olaraq göndərmişdir. Belə ki, şanı uca Allah, Qurani Kərimdə Peyğəmbəri (s) belə tərifləyir:

[وَمَا أَرْسَلْنَاكَ إِلَّا رَحْمَةً لِّلْعَالَمِينَ]

"(Ey Məhəmməd)! Səni ancaq aləmlərə rəhmət olaraq göndərdik[24]".

Peyğəmbər (s) mərhəmət olaraq yaradılmışdır. Rəhmətli olması tək müsəlmanlara aid deyil. Əksinə, mərhəmət və şəfqəti bütün bəşəriyyət üçündür. O uca şəxsiyyət insanların dünya və axirət səadətini təmin etmək üçün göndərilmişdir. Allah Rəsulu (s)

---

[24] Ənbiya - 107

bütün bəşəriyyətin ən şəfqətli və mərhəmətli atası olmuşdur. Haqq və doğru yoldan ayrılan bir övladın atasından da daha çox onların vəziyyətlərinə üzülürdü. Qurani-Kərim Peyğəmbərin (s) şəfqət və mərhəmətini belə ifadə edir:

[لَعَلَّكَ بَاخِعٌ نَّفْسَكَ أَلَّا يَكُونُوا مُؤْمِنِينَ]

“Ey Məhəmməd! Mömin olmurlar deyə, sanki özünü həlak edəcəksən25”!

Diqqət ediləcək olursa, Peyğəmbər (s) haqqı inkar edən və səadət yoluna daxil olmayanın halına nə qədər incidildiyinin və hətta özünü həlak edəcəsinə məyus olduğuna və insanların nicat və səadəti üçün nə qədər mücadilə etdiyinə şahid oluruq. Peyğəmbərini bu halda görən uca Allah: "Ey Peyğəmbərim, insanlar doğru yola gəlmir və inanmırlar deyə özünü məhv etmə",- deyərək ona təsəlli verir.

Allah Rəsulu (s) din, dil, irq, rəng və inanc ayrı-seçkiliyi etmədən bütün insanları öz övladları və canının bir parçası kimi bağrına basırdı. Onların yaxşılığını və hidayətini cani-könüldən istəyirdi. Övladını azğınlıq və yanlış yolda görən şəfqətli bir ata misalı dərindən kədərlənib, məyus olardı. Allah Rəsulu (s): "Mən rəhmət və şəfqət üzrə göndərilmişəm",- cümləsi ilə özünü bütün aləmə rəhmət olaraq tanıdır.

[25] Şuəra - 3

# PEYĞƏMBƏRİMİZİN (s) GÖZƏL DAVRANIŞI

Peyğəmbərin şəriətinin üzərindən çox keçmədən, dörd bir tərəfdə dəvətinin səsləri eşidilməyə başladı. İslama dəvət, Ərəb torpaqlarından bütün dünyaya çatdı. Dünyanın hər yerindən qruplar və tayfalar İslamın mərkəzi Mədinəyə gəlib sərbəst İslamı tədqiq edir və Peyğəmbərlə görüşdükdən sonra da güvən içində mahallarına qayıdırdılar. Gələnlər arasında azad şəkildə, öz iradələri ilə İslamı seçib qəbul edənlər də olurdu, inkar edənlər də. Peyğəmbərimiz (s) uzaq və yaxından gələn qeyri-müsəlman qonaqları hörmətlə evində qarşılayır və onlara hədiyyələr də edirdi. Bəzən onunla görüşməyə gələn xristian qonaqlar üçün öz cübbəsini yerə sərib onları üzərində oturdardı. İran və Rum imperatoruna məktublar yazıb onları haqqa dəvət edir və onlardan dini təbliğatına mane törətməməklərini istəyərdi.

Uca İslam Peyğəmbəri (s) insanların sərbəst, tərəfsiz araşdırmalar apararaq istədikləri inancı qəbul etmə mühiti yaratmaq üçün maksimum səy sərf edərdi. İnsanlardan haqqı, dəlil və sübutları görəndə heç tərəddüd və qorxuya qapılmadan sərbəst haqq dinə tabe olub, hidayət olmalarını istəyirdi. İnsanların azad iradəsini əlindən alıb onlara mane olanlarla mübarizə aparmaq onun ən mühüm missiyalarından biri idi. Həqiqətdə Peyğəmbər (s) hər zaman "fikir və əqidə azadlığının" mübarizəsini istəmişdir. Öz dövründəki padşahlar və rəhbərlərə yazdığı məktublarında da heç vaxt onlardan hökumət və padşahlıqlarını İslam hökumətinə təslim etmələrini istəməmişdir. Əksinə, İslamı qəbul edəcəkləri təqdirdə, səltənət və hakim olduqları ərazilərdə qalacaqlarına dair

təminat verib və haqq dəvəti qəbul etməyib batil yolda ayaq dirəmələri vəziyyətində isə qiyamət gününün əzab və bəlasına tutulacaqlarını bildirmişdir. Diqqət etsək, Peyğəmbər (s) heç vaxt müsəlman olmayanları dünya əzabı və bəlaları ilə qorxutmayıb. Məsələn, Peyğəmbərimiz (s) İran Padşahı və Kayser Rumına yazdığı məktubunda buyurur:

"Əgər bu haqq dəvəti qəbul etməsəniz Mecus və Kayser Rum xalqının günahlarını çiyinləmiş olarsınız. Sizin haqqı qəbul etməməyiniz onları azad iradə və İslamı seçmələrindən məhrum etməyiniz deməkdir".

Peyğəmbərin (s) yaşayışı Qurandan alınıb, dolayısıyla Peyğəmbərimizin (s) yaşayışında bütün inanc mənsublarına sərbəst yaşamaq hüququ verilmişdir. Peyğəmbərimiz qeyri-müsəlmanlarla əlaqə və dialoqlarında onlardan heç bir təsir altında qalmadan sərbəst seçim etmələrini istəyirdi. Heç vaxt İslamı zorla heç kimə qəbul etdirməmişdir.

Nəcran xristianları Mədinəyə gəlib onunla görüşəndə din və İslamı qəbul etmələri barədə onları heç bir şəkildə zorlamamış, əksinə, öz ibadətlərini rahat edə bilmələri üçün onlara xüsusi yer ayırmışdır.

Peyğəmbərimizin (s) gözəl əxlaqı, şəfqətli və mehriban davranışı, başqa din və etiqadlara mənsub insanların Mədinəyə səfərini təmin etmişdir. Tarixi mənbələr, Mədinənin Həbəşistan, Himira və daha bir çox müxtəlif bölgələrdən gələn qırx ayrı qrupa ev sahibliyi etdiyini yazır.

Görəsən, hansı dini etiqadda şəfqət və mərhəmət duyğularının belə qabarıq və zirvədə olduğu görülmüşdür? Sevgiyə, şəfqətə və

mərhəmətə hər şeydən daha çox dəyər verən və qəlbi insan sevgisi ilə aşıb-daşan sevgi Peyğəmbərinin dini və əqidəni zorakılığa və qılınca söykənən bir inanc olaraq tanıtmaq insafsızlıq deyilmi?

## PEYĞƏMBƏRİMİZİN (s) BÜTÜN BƏŞƏRİYYƏTƏ NÜMUNƏVİ ƏDALƏTİ

Allah Quranda möminlərə "Allah üçün şahidlər olaraq ədaləti ayaqda tutun. İstər (Onlar) varlı olsun, istər kasıb olsun. Çünki, Allah onlara daha yaxındır. Haqdan dönüb, hissiyyata qapılmayın[26]", - şəklində buyurur. Peyğəmbərimiz (s) həm müsəlmanlar arasında verdiyi hökmlərdə, həm də digər din, dil, irq və millətlərdən olan insanlara qarşı ədalətli və şəfqətli münasibətində, həm də Allahın ayədə bildirdiyi kimi, varlı-kasıb ayrımı etmədən hamıya bərabər davranmasında bütün insanlar üçün çox böyük bir nümunə var.

Allah bir ayəsində Peyğəmbərə (s) belə buyurur:

"Onlar yalana qulaq asanlar və haram yeyənlərdir. Əgər yanına gəlsələr, aralarında hökm et və ya onlardan üz çevir. Əgər onlardan üz döndərsən, sənə heç bir zərər verə bilməzlər. Əgər aralarında hökm etsən, ədalətlə hökm et. Allah ədalət sahiblərini sevər![27]".

Peyğəmbərimiz (s) belə çətin bir qövmün içində belə, Allahın əmrinə uymuş və heç bir zaman ədalətli olmaqdan bir an belə yan

[26] Nisa – 135
[27] Maidə - 42

keçməmişdir. Daim "Rəbbim ədalətli olmağı əmr etdi"[28],- deyərək hər dövrdə bütün insanlara nümunə olmuşdur.

Həzrət Məhəmmədin (s) peyğəmbərliyi müddətində ədalətli mövqeyinə nümunə təşkil edən bir çox hadisə baş vermişdir. Peyğəmbərimizin (s) yaşadığı məkanda bir çox müxtəlif din, dil, irq və qəbilədən olan insanlar bir arada yaşayırdı. Bu icmaların bir yerdə dinclik və güvən içində yaşamaları, aralarına nifaq salmağa çalışanları təsirsiz buraxılmaları çox çətin idi. Ən kiçik bir sözdən və ya davranışdan dərhal bir qrup digərinə qarşı hirslənib hücum edirdi. Ancaq Peyğəmbərimizin ədaləti, müsəlmanlar üçün olduğu qədər bu icmalar üçün də bir rahatlıq və təminat mənbəyi olmuşdur. Ərəbistan yarımadasında xristian, yəhudi, bütpərəst, ayırd etmədən hər kəsə İslam sayəsində ədalətli münasibət göstərilmişdir. Peyğəmbərimiz, Allahın "Dində məcburiyyət yoxdur[29]". ayəsinə riayət edərək, hər kəsə haqq dini danışmış, lakin seçkilərini etmək məsələsində sərbəst buraxmışdır.

Allah Peyğəmbərimizə (s.) bir başqa ayəsində də, fərqli dinlərdən olan insanlara qarşı necə bir ədalət və razılıq içində olması lazım olduğunu belə buyurmuşdur:

("Ya Peyğəmbər!) Buna görə də sən (xalqı tövhid dininə) dəvət et və sənə əmr edildiyi kimi (bu yolda) səbatlı ol. Onların (müşriklərin) nəfslərindən gələn istəklərə uyma və de: Mən Allahın nazil etdiyi kitaba (bütün ilahi kitablara) inandım. Mənə sizin aranızda ədalətlə hökm etmək (ədalətli olmaq) əmr olun-

---

[28] Əraf – 29
[29] Bəqərə - 256

muşdur. Allah bizim də Rəbbimizdir, sizin də Rəbbiniz. Bizim əməllərimiz bizə, sizin də əməlləriniz sizə aiddir (hərə öz əməlinə cavabdehdir). Bizimlə sizin aranızda heç bir mübahisə yoxdur (bizim haqlı olduğumuz göz qabağındadır). Allah (qiyamət günü) hamımızı bir yerə toplayacaqdır. Axır dönüş də yalnız Onadır!30".

Peyğəmbərimizin (s) Quran əxlaqına tabe olaraq göstərdiyi bu gözəl davranışı, bu gün fərqli dinlərdən insanların bir-birinə qarşı münasibətləri mövzusunda nümunə olmalıdır.

Peyğəmbərimizin (s) ədaləti, fərqli irqlərdən olan insanlar arasında da razılaşmanı təmin etmişdir. Peyğəmbərimiz (s) bir çox çıxışında, hətta Vida xütbəsində də irqlərə görə bir üstünlük olmadığını, Allahın ayədə xəbər verdiyi kimi, "üstünlüyün təqva ilə mümkün olacağını" bildirmişdir. Ayədə belə bildirilir:

"Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır[31]".

Peyğəmbərimiz (s) isə iki ayrı hədisində belə buyurmuşdur:

"Ey insanlar! Hamınız Adəmin uşaqlarısınız. Adəm isə torpaqdan yaradılıb. İnsanlar mütləq və mütləq irqləri ilə lovğalanmaqdan çəkinməlidirlər".

---

[30] Şura - 15
[31] Hucurat - 13

“Sizin bu soyunuz-soyadınız heç kəsə üstünlük və təkəbbür göstərməyə vəsilə olacaq şey deyil. (Ey insanlar)! Hamınız Adəmin uşaqlarısınız. Hamınız bir miqyas içindəki bir-birinə tay buğda dənələri kimisiniz. Halbuki, heç kim kimsədən din və təqvada müstəsna üstünlüyü yoxdur. Adama pis olması üçün; başqalarını mənfi, kiçik görməsi, paxıl, pis xasiyyətli, hədd və sərhədi aşmış olması kifayətdir”.

Peyğəmbərimiz (s) Vida xütbəsində də müsəlmanlara belə səslənmişdi:

“Nəsillərlə öyünülməz. Ərəblər, Ərəb olduqlarından Terminlərdən; Terminlər də, Əcəm olduqlarından Ərəblərdən üstün sayılmırlar. Çünki Allah dərgahında ən uca olanınız, ona qarşı gəlməkdən ən çox (ən təqvalınız) çəkinəninizdir”.

Ərəb yarımadasının cənub hissəsindəki xristian Nəcran xalqı ilə keçirilən bir sazişdə Peyğəmbərimizin ədaləti burada çox gözəl bir nümunə sayılır. Bu sazişin maddələrindən biri belədir:

“Nəcranlıların və bərabərində canları, malları, dinləri varları və yoxları, ailələri, kilsələri və sahib olduqları hər şey Allahın və Peyğəmbərinin himayəsi altına alınacaqdır”.

Peyğəmbərimizin (s) xristian, yəhudi və müşrik icmalarla imzaladığı Mədinə Sazişi də əhəmiyyətli bir ədalət nümunəsidir. Fərqli inanclara sahib icmalar arasında ədalətin təmin edilməsi və hər icmanın maraqlarının güdülməsi üçün hazırlanan bu arayış sayəsində illərlə düşmənçilik içində yaşayan icmalara sülh gətirilmişdir. Mədinə Konvensiyasının ən bariz xüsusiyyətlərindən biri etiqad azadlığının təmin edilməsidir. Bu məsələ ilə bağlı maddə belədir: “Bəni Avf yəhudiləri möminlərlə birlikdə

eyni ümmətdirlər, yəhudilərin dinləri özlərinə, müsəlmanların dinləri də özlərindədir".

Mədinə Konvensiyasının 16-cı maddəsində isə, "Bizə tabe olan yəhudilər, heç bir haqsızlığa məruz qalmadan və düşmənləri ilə də yardımlaşmadan, yardım və dəstəyimizə layiq görüləcəklər",- deyə bildirilmişdir. Peyğəmbərdən (s) sonra da mötəbər səhabələri onun (s) sazişə qoydurduğu bu hökmə sadiq qalıblar və həmin hökmü Bərbəri, Buddist, Brahman və oxşar inanclara sahib insanlar üçün də tətbiq etmişlər.

İslamın hakim dövrünün sülh, əmin-amanlıq və təhlükəsizlik içində keçməsinin ən mühüm səbəblərindən biri, Quran əxlaqına tabe olan Peyğəmbərimizin (s) ədalətli mövqeyidir.

Peyğəmbərimizin (s) ədaləti, müsəlman olmayan insanlarda da inam hissi oyatmışdır və müşriklərdən də Peyğəmbərimizin himayəsi altına girmək istəyənləri olub. Allah, Quranda müşriklərin bu tələblərini bildirmiş və eyni zamanda Peyğəmbərimizə (s) bu insanlara qarşı necə davranmasını belə vəhy etmişdir:

Əgər (basqına uğrayan) müşriklərdən biri səndən aman istəsə, ona aman ver ki, Allah kəlamını (Quranı) dinləsin. Sonra (islamı qəbul etmədiyi təqdirdə) onu əmin olduğu (müşriklərin yaşadığı) yerə çatdır. Çünki onlar (haqqı) bilməyən bir tayfadır!

Məscidül-həramın yanında (Hüdeybiyyədə) müqavilə bağladığınız kəslər (Bəni-Zəmirə və Kinanə qəbilələri) istisna olmaqla, müşriklərin Allah və Onun Peyğəmbəri yanında necə əhdi ola bilər?! Onlar sizinlə doğru-düzgün davrandıqca (əhdi poz-

madıqca) siz də onlarla doğru-düzgün dolanın. Həqiqətən, Allah müttəqiləri (xəyanətdən, əhdi pozmaqdan çəkinənləri) sevər[32]!

Günümüzdə də, dünyanın dörd bir tərəfində meydana gələn münaqişələrin, mübahisələrin, narahatlıqların yeganə həlli Quran əxlaqına tabe olmaq və Peyğəmbərimiz (s) kimi din, dil və irq ayrı-seçkiliyi qoymadan, ədalətdən heç vaxt ayrılmamaqdır.

## PEYĞƏMBƏRİMİZİN (s) PADŞAHLARA MƏKTUBLARI

Peyğəmbərimiz (s) risalət və peyğəmbərliyi ümumbəşəri olduğundan gətirmiş olduğu dinin hökmləri də bütün bəşəriyyəti əhatə edirdi. Peyğəmbərimiz İslam şəriətinin ilk başlanğıcında bunun bütün aləmi əhatə edəcəyini demişdi. İslam, Hicaz torpaqlarına yaxşıca nüfuz edib yayıldıqdan sonra İslam Peyğəmbəri (s) dövrün böyük padşah və hökmdarlarına müxtəlif məktublar yazaraq onları İslama və səmavi dinlərin ortaq nöqtələrində birləşməyə dəvət edib.

Peyğəmbərimizin (s) yazdığı məktublardan bəziləri bunlardır:

## MİSİR PADŞAHINA MƏKTUBU

Rəhman və Rəhim olan Allahın adı ilə

Abdullahın oğlu Muhəmmədən Kibtilərin lideri Mukavkisə33

“Rəhman və Rəhim olan Allahın adı ilə.

[32] Tövbə - 6-7

[33] Mukavkis, Rum padşahı tərəfindən tapşırılmış Misir torpaqlarında yaşamış bir padşah.

Salam doğru yolu təqib edənlərə olsun! Sonra, səni İslama çağıran sözə (Allah və Peyğəmbərinə iman etməyə) çağırıram. Müsəlman ol və sağlamlıq tap. Allah (Vaxtilə İsa əleyhissəlama, indi də mənə iman etdiyin üçün) sənə iki qat savab verir. Əgər qəbul etməsən, Kibt qövmünün günah və vəbalı sənin boynunadır. Ey əhli kitab! Bizim ilə sizin aranızda müştərək olan bir sözə gəlin. Belə ki, Allahdan başqasına ibadət etməyək. Ona heç bir şeyi ortaq qoşmayaq. Allahı qoyub bir-birimizi Rəbb qəbul etməyək. Əgər üz çevirsələr, ey möminlər! Siz onlara deyin ki: Şahid olun, biz müsəlmanlardanıq".

Mukavkis, Peyğəmbərimizin (s) elçisinə böyük bir hörmət və ədəblə davrandı və katibinə cavab olaraq belə yazmasını əmr etdi:

Kibtilərin böyüyü Mukavkisdən Abdullahın oğlu Məhəmmədə:

Salam olsun sizə. Məktubunu oxudum. Məqsəd və dəvətinin həqiqətini dərk etdim. Mən bir peyğəmbərin gələcəyini bilirdim və onun Şam zonasından seçiləcəyini güman edirdim. Göndərdiyin elçiyi hörmət və ehtiramla qarşıladım[34]".

Misir padşahı daha sonra məktubla birlikdə Allah Peyğəmbərinə (s) bir sıra hədiyyələr göndərdi.

## RUM KRALI KAYSERƏ MƏKTUBU

"Rəhman və Rəhim olan Allahın adı ilə.

Abdullahın oğlu Məhəmməddən böyük Rum Padşahı Hirakla:

---

[34] Mekatibur-Resul, c.1, s.100-101 (Ayətullah Əli Əhmədi Miyanəci)

“Bismillahir-rəhmanir-rəhim! Məhəmməd Rəsulullahdan Yunanların böyüyü Hiraklə! Hidayət yoluna daxil olanlara salam olsun. Bundan sonra ey Rum millətinin böyüyü! Səni İslama dəvət edirəm. Müsəlman ol ki, sağlamlıqda olasan. Müsəlman ol ki, Allah mükafatını (İslam dinini qəbul etdiyinizə və sayənizdə İslam dinini seçmişlərə görə) iki qat versin. Əgər bu dəvətimi qəbul etməsən, yoxsul Ersiyan[35] və bütün təbəqənin günahı sənin boynunadır. Sənə Allahın bu kəlamını xatırladıram: “De ki: Ey Əhli-kitab olan xristian və yəhudilər! Sizinlə bizim aramızda müştərək olan bir sözə gəlin! Allahdan başqasına ibadət etməyək. Ona heç bir şeyi şərik tutmayaq. Allahı qoyub da bir-birimizi özümüzə rəbb qəbul etməyək. Əgər onlar üz döndərsələr siz deyin ki, biz Allaha təslim olan müsəlmanlardanıq”.

Elçi, Peyğəmbərin (s) məktubunu Herakliyusa çatdırdı. Herakliyus məktubu oxudu, sarsıldı və tərləməyə başladı. Məktubu öpüb başına qoyduqdan sonra “Süleyman Peyğəmbərdən sonra "Bismillahir-rəhmanir-rəhim”,- deyə başlayan bir məktub görməmişəm",- dedi. Rum Kralı daha sonra katibini çağırıb məktubu oxuyub, tərcümə etməsini istədi.

Rum Kralı, Peyğəmbərimizin, nəcib bir nəsildən, doğru və hər cür yalandan uzaq, ona iman edənlərin sayının günü-gündən çoxalması, zənginlərin ona müxalif, kasıbların isə qəbul etdiyi xüsusiyyətlərindən xəbərdar olunca belə dedi: “Əgər bu deyilənlər doğrudursa qətiyyən o gözlənilən peyğəmbərdir. Mən daha əvvəl belə bir peyğəmbərin gələcəyini eşitmişdim, ancaq onun Qüreyş qəbiləsindən olacağını bilmirdim. Mən ona hörmət edib ayaqlarını

[35] Rum irqindən işçilərə deyilir.

yumağa hazıram. And içərək və inanaraq deyirəm ki, onun səltənəti yaxında bu ayağımın altındakı yerlərə hakim və hökmran olacaqdır[36]".

Rum Kralı, Peyğəmbərimizin elçisini hörmətlə hüzuruna çağırdı və ona hörmət göstərdi. Məktubun cavabı ilə birlikdə İslam Peyğəmbərinə bir sıra hədiyyələr göndərdi.

## HƏBƏŞİSTAN KRALINA MƏKTUBU

"Rəhman və Rəhim olan Allahın adı ilə.

Allah Rəsulu Məhəmməddən Həbəş Nəcaşisi Ashamaya.

Salam olsun sənə. Özündən başqa İlah olmayan həqiqi Hökmdar, Müqəddəs, Salam, Qoruyucu, Xilaskar olan Allahın tərifini sənə çatdırıram. Onun itaətkar qulları qəzəbindən güvən və əmniyyətdədir. O, bütün qullarının hal və vəziyyətinə vaqif və onlardan xəbərdardır. Təsdiq edib şəhadət edirəm ki; Məryəm oğlu İsa Allahın ruhu və kəlməsidir. Özünə toxunulmamış Məryəmə nəsib edilmişdir. Beləliklə, Məryəm İsaya hamilə qalmış, Allah-taaladan ruh və nəfəsindən olmaq üzrə Adəmi necə yaradıbsa onu da eləcə yaratmışdır. Səni tək olan və bənzəri olmayan Allaha çağırıram. Ona itaət məsələsində qarşılıqlı köməyə çağırıram. Məni təqib et, mənə tabe ol və mənə gələn şeyə iman et. Söylə ki, mən Allahın Rəsuluyam. Bu səbəblə səni və ətrafında olan əsgərlərini Allaha iman etməyə dəvət edirəm. Nəsihət və sözlərim sizə çatanda qəbul etməyinizi tövsiyə edirəm.

---

[36] Mekatibur-Resul, c.1, s.109 (Ayətullah Əli Əhmədi Miyanəci)

Əmi tərəfindən qardaş oğlum olan Cəfəri az sayda müsəlman qrupuyla birgə sənə doğru yola çıxarıram. Salam həqiqi hidayət yolu üzərində olanlara olsun[37]".

Peyğəmbərimizin (s) Həbəş padşahına xüsusi bir marağı vardı. Çünki Həbəş padşahı Məkkədə müşriklərin işgəncə və repressiyalarından qaçıb Həbəşistana sığınan müsəlmanları bağrına basıb onları qoruma altına almışdı.

Peyğəmbərimiz (s) Həbəş padşahına yazdığı məktubuna salamla başlamış və şəxsən öz salamını ona çatdırır. Kayser, Kisra və başqa padşahlara yazdığı məktubda öz şəxsi salamını onlara yazmamışdır. Yalnız ümumi bir salamlamaqla: "Salam, doğru yola tabe olanlara olsun",-deye yazmaqla kifayətlənib. Peyğəmbərin Həbəş kralı Ashamayı belə salamlaması ona hörmət və sevgisini göstərib.

## HƏBƏŞ KRALININ CAVABI

Neccaşi, Peyğəmbərin dəvətini cani-könüldən qəbul etsə də, ancaq açıq-aşkar müsəlman olduğunu bildirməyib və xalqını İslama dəvət etmək məsələsində Peyğəmbərimizin (s) elçisinə belə deyib:

"Mən müsəlman olduğumu elan edərəm, amma hazırda şərait bu dəvəti qəbul etməyə uyğun deyil. Biz qəlblərin İslama

[37] Mekatibur-Resul, c.1, s.120 (Ayətullah Əli Əhmədi Miyanəci)

yönəlməsinə zəmin hazırlamalıyıq. Əgər bu an əlimdə olsaydı, dərhal Peyğəmbərin hüzuruna gedərdim[38]".

Neccaşi, Peyğəmbərimizə məktub yazaraq İslamı qəbul edib müsəlman olduğunu bildirmişdir.

## NECCAŞİNİN PEYĞƏMBƏRİMİZƏ (S) MƏKTUBU

"Rəhman və rəhim olan Allahın adı ilə. Allahın Rəsulu Məhəmmədə, Esham İbni Ebcerden.

Allahın salamı, rəhməti və bərəkəti sənin üzərinə olsun, ey Allahın Peyğəmbəri! O ki, Ondan başqa İlah yoxdur və məni də O, İslamla yola yönəltmişdir!

Sənin məktubun və İsa haqqında zikr etdiyin şeylər mənə çatıb ey Allahın Rəsulu! Yerin və göyün Rəbbinə and olsun ki, dediklərinin hamısı həqiqətin özüdür və mən heç bir şəkildə müxalif deyiləm. Gətirdiyin din və şəriətdən xəbərdar oldum və bizə sığınan müsəlmanlara əlimizdən gəldiyi qədər xidmət edirik.

Mən, bu məktubla şəhadət edirəm ki, sən, sadiqsən və (Allahın kitablarını təsdiq edən) (ilahi kitablar tərəfindən təsdiqlənən) Allahın Elçisisən. Mən əmin oğlu Cəfər bin Əbu Talibin hüzurunda iman edib, beyət edərək aləmlərin Rəbbinə təslim oldum. Müsəlman olduğumu bildirmək üçün oğlum Eriha bin Esham bin Ebceri sizə göndərirəm. Və mən, sadəcə, özümə cavabdehəm; Əgər hüzuruna gəlməyimi əmr etsən, onu da edi-

[38] Et-tabakatul-kubra, c.1, s.295

rəm, ya Rəsulallah! Çünki mən bilirəm ki, sənin dediklərinin hamısı haqdır. Salam olsun sənə ey Allahın peyğəmbəri[39]"!

Peyğəmbərimiz (s) padşahlara yazdıqları məktubların məzmununa baxsaq görəcəyik ki, müqəddəs İslam dini dəvətinin əvvəlindən bəri həmişə digər ilahi dinlərlə bərabər bilib sülh içində yaşamağı təklif etmişdir.

Rəsuli Əkrəm (s) fərqli bölgələrdəki padşahlara göndərdiyi məktublarda İslamiyyətin əsl şüarı və əsas şüarı olan Ali İmran surəsinin 64-cü ayəsini xatırlatmışdır:

[قُلْ يَا أَهْلَ الْكِتَابِ تَعَالَوْاْ إِلَى كَلَمَةٍ سَوَاء بَيْنَنَا وَبَيْنَكُمْ أَلاَّ نَعْبُدَ إِلاَّ اللّهَ وَلاَ نُشْرِكَ بِهِ شَيْئًا وَلاَ يَتَّخِذَ بَعْضُنَا بَعْضاً أَرْبَابًا مِّن دُونِ اللّهِ فَإِن تَوَلَّوْاْ فَقُولُواْ اشْهَدُواْ بِأَنَّا مُسْلِمُونَ]

(Ya Rəsulum!) Söylə: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan (fərqi olmayan) bir kəlməyə tərəf gəlin! ( O kəlmə budur: ) "Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!" Əgər onlar yenə də üz döndərərlərsə, o zaman (onlara) deyin: "İndi şahid olun ki, biz, həqiqətən, müsəlmanlarıq (Allaha təslim olanlarıq)![40]".

Müqəddəs İslam dinində, mal və sərvət toplamaq məqsədilə müharibə aparmaq şiddətlə qınanmış və qadağan olunmuşdur. İslamda əsas olan sülh şəraitində bərabər və qardaşlıq münasibətində yaşamaqdır. İslamın çağırışı da həmişə zühur etdiyi

---

[39] Tarixi Təbəri, c.2, s.294; Ənvar, c.6, s.398

[40] Ali İmran – 64

gündən etibarən bu istiqamətdə olmuşdur. Necə ki, Qurani-kərim bu barədə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِذَا ضَرَبْتُمْ فِي سَبِيلِ اللّهِ فَتَبَيَّنُواْ وَلاَ تَقُولُواْ لِمَنْ أَلْقَى إِلَيْكُمُ السَّلاَمَ لَسْتَ مُؤْمِنًا تَبْتَغُونَ عَرَضَ الْحَيَاةِ الدُّنْيَا فَعِندَ اللّهِ مَغَانِمُ كَثِيرَةٌ كَذَلِكَ كُنتُم مِّن قَبْلُ فَمَنَّ اللّهُ عَلَيْكُمْ فَتَبَيَّنُواْ إِنَّ اللّهَ كَانَ بِمَا تَعْمَلُونَ خَبِيرًا]

"Ey iman gətirənlər! Allah yolunda (cihad etmək üçün) səfərə çıxdığınız zaman diqqətli olun! Sizə müsəlman olduğunu bildirən (salam verən) bir kimsəyə dünya həyatının puç mənfəətinə tamahsılanaraq: "Sən mömin deyilsən!" deməyin! Halbuki çox qənimətlər Allah yanındadır. Siz özünüz də bundan əvvəl onlar kimi idiniz, lakin Allah sizə mərhəmət etdi. Elə isə, siz də (insanları bir-birindən fərqləndirməkdə) diqqətli olun! Şübhəsiz ki, Allah bütün etdiklərinizdən xəbərdardır![41]".

İslamda yalnız azadlıq, İslami dəvətin önündəki əngəlləri qaldırmaq və insanlar üçün sərbəst şərait hazırlamaq üçün müharibə və cihada icazə verilmişdir. Necə ki, Qurani Kərimdə belə buyurulur:

وَمَا لَكُمْ لاَ تُقَاتِلُونَ فِي سَبِيلِ اللّهِ وَالْمُسْتَضْعَفِينَ مِنَ الرِّجَالِ وَالنِّسَاء وَالْوِلْدَانِ الَّذِينَ يَقُولُونَ رَبَّنَا أَخْرِجْنَا مِنْ هَذِهِ الْقَرْيَةِ الظَّالِمِ أَهْلُهَا وَاجْعَل لَّنَا مِن لَّدُنكَ وَلِيًّا وَاجْعَل لَّنَا مِن لَّدُنكَ نَصِيرًا

("Ey müsəlmanlar!) Sizə nə olub ki, Allah yolunda (hicrət etməyib, yaxud əsir kimi Məkkədə qalıb): "Ey Rəbbimiz, bizi əhalisi zalım olan bu şəhərdən (Məkkədən) kənara çıxart, bizə öz

---

[41] Nisa - 94

tərəfindən mühafizəçi göndər, yardımçı yolla!" - deyə dua edən aciz kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?[42]".

Dolayısı ilə padşah və hökmdarlara yazdığı məktublara baxanda şəfqət və rəhmət peyğəmbərinin daima birlik və bərabərlik içində sakit bir mühit yaratmaq məqsədi daşıdığını və bu istiqamətdə mesajlar göndərdiyini görürük.

Peyğəmbərimizin (s) sənədləri təxminən yazdığı sübut edilmiş 175 dəvət məktubunun tamamında həzrətin hər cür kobud qüvvə, təzyiq və təhdiddən uzaq, yalnız sülh, qardaşlıq və dinc şəraitdə yaşamaq mesajları verdiyini görürük. Bu səbəbdən Peyğəmbərimizin (s) digər din və inanclara mənsub şəxslərə yazdığı məktublar, əhdnamələr və sülh mətnləri dəvətinin qətiyyən qılınc və zorakılıqdan uzaq olduğuna ən sağlam sübutlardır.

## PEYĞƏMBƏRİMİZİN (s) SÜLH MESAJLARI

Peyğəmbərimizin (s) dini və şəriəti universal olduğu üçün İslam çətiri altında yer alan və almayan  dünyadakı bütün dinlər üçün, hökümətlər üçün hörmət-izzət olaraq namusu, canları və malları möhtərəm sayılmışdır.

Yalnız insanlara yox, bütün canlılara qarşı məsuliyyət daşıdığımızı bildirən İslam, bir tərəfdən fərdi mənada şükür, təqva, səbr, namus, düzlük, dürüstlük və əməksevərlik kimi əxlaqi dəyərlərin önəmini qeyd edib. Digər tərəfdən, birlikdə yaşamağın bərabər şəkildə uyğun olaraq  bölüşmə, əfv, həmrəylik, qardaşlıq

[42] Nisa - 75

kimi yaşamaq fəzilətləri ön plana çıxarmışdır. İctimai bərabərliyi gücləndirən əxlaqı və insani keyfiyyətlərə daim diqqəti çəkir. Bunun dəlili isə Peyğəmbərimizin padşah və hökmdarlara yazdığı məktublardır ki, Hz.Məhəmməd onların varlığını rəsmi tanımış, istər öz dövründə, istərsə də vəfatından sonra aparılan sülh müqavilələrində qeyri-müsəlmanlar, sülh müqavilələrinə vəfalı olduqları müddətcə İslam təəssübkeşləri də o müqavilələrə sadiq qalmışdır. Çünki müqəddəs İslam dinində müqaviləni və sülhü pozmaq böyük günahlardan sayılmışdır.

İslam, müsəlman və azlıq inanclara qarşı beynəlxalq əlaqələrində barış və sülh içində gözəl bir şərait yaratmaq və bu yolda hər bir imkandan istifadə etməyi əsas vəzifəsi saymışdır. Beynəlxalq ədavət və çəkişmələrin qarşısını almaq üçün də sülh müqavilələrinə çox əhəmiyyət vermişdir. Hətta əhdə vəfanı vacib edərək hər kəsin bu məqama diqqət etməsini və tabe olmasını əmr etmişdir.

## PEYĞƏMBƏRİMİZİN (s) SÜLHƏ VƏ QARDAŞLIĞA QARŞI HƏSSASLIĞI

Peyğəmbərimizin (s) yaşayışını diqqətlə oxuyanda, bəşəri mədəniyyətində insanlara hörmətin və onları sevməyin məqsəd olduğunu görürük. Peyğəmbərin bəşəri mədəniyyətində hər qəbilə öz varlıq və kimliyini qorumuşdur, Onun bu mədəniyyətində insanların azadlığına önəm verilmişdir. Hər cür sanksiya və zorakılıq rədd edilib, pislənmişdir. Peyğəmbərimizin, digər inanc və dinlərlə sülh müqavilələri etmiş, etdiyi sazişlərə sadiq qalmış, müharibə və kini ortadan qaldırmışdır. Peyğəmbərimizin

(s), Qüreyş mühacirləri,  Ovs və Xəzrəc qəbilələri arasında sülh müqavilələri etdiyi kimi, yəhudi qəbilələr arasında da sülh müqavilələri üçün zəmin yaradaraq müsəlman və qeyri-müsəlmanın bir arada sülh və əmin-amanlıq içində yaşamasını təmin etmişdir.

Bunun canlı nümunəsini Mədinədə müsəlmanlarla qeyri-müsəlmanlar arasında imzalanan saziş mənbələridir ki, hər bir inanc və etiqad mənsubu öz dini inanclarını sərbəst yaşamaq-daydı.

Peyğəmbərimizin hətta besətdən əvvəl belə hər hansı bir haqsızlığa məhəl vermədən bərabər şəkildə aparılan sülh müqavilələrinə sadiq qalmağa hər kəsdən daha çox əhəmiyyət vermişdir. Davamlı belə buyururdu:

"Cahiliyyə dövründə Abdullah bin Cedanın evində qəbilələr arasında məzlumların qorunması üçün yazılan sazişə o qədər sevinmişdim ki, bu əhd və sülhün pozulmaması üçün ən dəyərli dəvələrin belə bu yolda fəda edilməsinə razı olardım. İslamda əgər belə bir saziş mənə gəlsə tərəddüdsüz dərhal qəbul edərəm[43]".

## PEYĞƏMBƏRİMİZİN (s) SÜLH VƏ BARIŞ SAZİŞLƏRİ

Peyğəmbərimizin (s) yaşayışında qəbilələr, dinlər və beynəlxalq səviyyədə aparılan sülh və barış müqavilələri günümüzə qədər çatmışdır. O sülh və barış sazişindən bəzilərini aşağıda nümunə olaraq diqqətinizə çatdırırıq:

---

[43] Sirei İbn Hişam, c.1, s.34

# MƏDİNƏ KONVENSİYASI

Peyğəmbərimiz (s), bir günəş kimi bəşər səmasında doğulub, bütün dünyaya işıq saçmış və qiyamətə qədər də saçmağa davam edəcəkdir. O, çox qısa deyilən bir zaman kəsiyi ərzində bütün əsrləri işıqlandıracaq və insanların problemlərinə çarələr təqdim edəcək bir həyat yaşamış və yaşatdırmışdır. Peyğəmbərimizin bütün bəşərin həyatına lazım olan müstəvidə zühur etməklə cəmiyyətdə sosial sülh əldə etməsi o qədər gözəldir ki, bəşəriyyət tarixində oxşarını göstərməyə imkan yoxdur. Peyğəmbərin ortaya qoyduğu sistemdə, ictimai sülhə dair əməlləri ilə əlaqədar bir çox nümunə vardır. Peyğəmbərimizin, gərək müsəlmanlar arasında, istərsə də qeyri-müsəlmanlar arasında münasibətlərdə ortaya qoyduğu sistem və etdikləri, günümüz insanları üçün bir nümunə, əvəzolunmaz bir prototipdir. Peyğəmbərimizin o günlərdə, bir tərəfdən Məkkə müşrikləri ilə bir tərəfdən onlarla əməkdaşlıq edən yəhudilərlə, o biri tərəfdən xristianlarla həm Məkkə, həm də Mədinə həm də Ərəb yarımadasında təsis etdiyi sülh, insanlar üçün əbədi bir örnək olmalıdır. O, bir tərəfdən Məkkə və Mədinə müsəlmanları, yəni Mühacir və Ənsar arasında qardaşlıq elan edərkən, digər tərəfdən Mədinə müqaviləsi ilə müsəlman, yəhudi və müşriklər arasında haqq və ədaləti təmin etmişdir. Mədinə müqaviləsi, İslamda Peyğəmbərin müsəlmanlarla müşriklər və yəhudilər arasında təsis etdiyi mühüm bir sülh sazişidir.

Bu sülh müqaviləsində müsəlmanların bir-birinə qarşı vəzifələrilə yanaşı, müsəlmanlarla müşriklərin də hər biriləri qarşısındakı vəzifələri göstərilmişdir. Bu sazişin əsas məqsədi Mədinədə bir arada yaşayan hər bir təbəqədən olan inanc

sahibinin sülh və əmin-amanlıq içində bir-birlərinə zərər vermədən yaşamasını təmin etmək idi.

## MƏDİNƏDƏ MÜSƏLMANLAR ARASINDA YAZILAN SÜLH MÜQAVİLƏSİNİN MƏTNİNDƏ YER ALAN MÜSƏLMANLARIN VƏZİFƏLƏRİ:

1-Müsəlmanlar başqalarına qarşı bir bütündür. Müsəlman ilə kafir arasında heç bir ayrı-seçkilik söz mövzusu deyil.

2-Müsəlmanlar öz aralarında fidyə və pəhriz ödəyəcəklər.

3-Müsəlmanlar, nizam və rahatlıqlarını qaçırıb fəsad çıxaranlara qarşı bir bütündür.

4-Heç bir mömin bir kafir üçün bir mömini öldürə və bir mömin əleyhinə bir kafiri dəstəkləməz.

5-Əhd və aman Allaha məxsusdur. Şəxslər söz mövzusu deyil. Müsəlmanlardan biri digərinə sığınma və can təhlükəsizliyi verərsə, digər müsəlmanlar buna hörmət etməlidir.

6-Savaş və cihadda müsəlmanlar bir-birindən xəbərsiz heç bir sülh sazişi edə bilməz.

7-Savaş və cihad vəziyyətində əsgər qrupları növbə ilə cəbhəyə getməli və bir qrup iki dəfə cəbhəyə getməməlidir.

8-Haqsız yerə mömin birini öldürən qisas edilməli və ya zərərə uğrayanın himayəçisi razı salınmalıdır.

9-Müsəlmanlar arasındakı münaqişələrdə son söz Allah və Peyğəmbərinindir.

10-Müsəlman, borcunu yardım almaq münasibətilə də olsa ödəmək məcburiyyətindədir.

11-Bəzi möminlər bəzilərinin dostudur, heç bir kafir də möminin himayəçisi deyil.

12-Heç bir mömin məsləhət etmədən kafir birinə can təhlükəsizliyi verə bilməz.

## MƏDİNƏDƏ MÜSƏLMANLARLA YƏHUDİLƏR ARASINDA BAŞ VERƏN SÜLH MÜQAVİLƏSİNDƏ YER ALAN MÜSƏLMANLARIN VƏ YƏHUDİLƏRİN VƏZİFƏLƏRİ:

1-Bu razılaşma və sazişi imzalayıb qəbul edən Yəhudilərə heç bir şəkildə haqsızlıq edilməyəcək, düşmənlərinə qarşı da onlara kömək edilməyəcəkdir. Müsəlmanlar yəhudiləri, yəhudilər də müsəlmanları razılığa dəvət edəndə hər iki tərəf qəbul etmək məcburiyyətindədir.

2- (Bir müharibə vəziyyətində) Yəhudilərin xərcləri özlərinə, müsəlmanların xərcləri də özlərinə aiddir. Şübhəsiz adlı bu səhifədə (sənəddə) hədəf göstərilən şəxslərlə döyüşənlər öz aralarında bir-birinə kömək edəcəklər. Qaydalara tam riayət ediləcək və zidd davranış edilməyəcəkdir.

3-Bu sazişə əsasən müsəlmanlar və yəhudilər tək ümmət mövqeyindədirlər. Müsəlmanlar öz dinlərində yəhudilər də öz inanclarında azaddırlar.

4-Müsəlmanlar və yəhudilər vətənlərini düşmənlərə qarşı qorumaq və müdafiə etməkdə bir-birinə kömək etməlidir.

5-Heç kimsə birini digərinin günah və səhvinə görə mühakimə edə bilməz.

6-Hər iki tərəf də aralarındakı zəifləri və məzlumları qorumalıdır.

7-Müsəlmanlar və yəhudilərin məsləhəti gözlənilmədən heç bir kafirə sığınma haqqı verilə bilməz.

8-Qonşular bir bütündür, heç kim bir digərinə zülm və haqsızlıq edə bilməz

9-Razılaşmanın tərəf müqabili olan Müsəlmanlar və Yəhudilər əl-ələ verib Mədinəyə hücum edənlərə qarşı birlikdə hərəkət etməli və köməkləşməlidirlər

10-Müsəlman və Yəhudilər arasında bir-birinin xeyrini düşünmək və bir-birilərinin yaxşılığını istəmək arzusu hakimdir[44].

## HUDEYBİYƏ SAZİŞİ

Peyğəmbərimizin hər din və inancın inancını sərbəst, rahat və dinc şəraitdə sülh içində edə bilməsi məqsədilə müsəlman və qeyri-müsəlmanların müxtəlif qəbilələrindən həcc ziyarəti üçün 1800 nəfərlik sülh və barış karvanı hazırlayıb. Əslində Peyğəmbərimiz bu təşəbbüsü İslamı Mədinə daxilindən başqa qəbilələrə daşımaq və tanıtmaq istəyir, digər tərəfdən də Kəbənin sahibi olduqlarını iddia edən Qüreyşin əsl üzünü aşkara çıxarmaq istəyirdi.

[44] Mekatibur-Rəsul, c.1, s.261-263 (Ayətullah Əli Əhmədi Miyanəci)

Peyğəmbərin, Hudeybiyə adlanan yerdə Qüreyşin tam təchizatlı ordusu ilə rastlaşdı. Allahın Peyğəmbəri elçilər vasitəsilə məqsədinin müsəlmanlarla birlikdə Kəbəni ziyarət etmək olduğunu müşriklərə bildirib. Hacılarla müharibə və ədavət, cahiliyyə ərəblərinin adət və ənənələrinə zidd olduğundan və Məkkənin hacılara xidməti özlərinə fəxr hesab etmələrindən dolayı, müşriklər müsəlmanlara qarşı döyüşmə mövzusunda tərəddüdə qapıldılar. Sonunda Allah Rəsulu ilə Qüreyş müşrikləri arasında Hudeybiyə sülhü imzalandı. Bu sülhlə yanaşı müsəlmanlar ilə Qüreyş arasında bir yaxınlıq əlaqəsi yarandı və artıq bir-birinə qarşı yaxşı davranmağa başladılar[45].

## HUDEYBİYƏ MÜQAVİLƏSİNİN MADDƏLƏRİ

1-Muhəmməd bin Abdullah və Qüreyş 10 il müharibə etməyəcək və bu müddət ərzində iki tərəf arasında təcavüz və müharibə olmayacaq.

2-Hər iki tərəf istədikləri tayfalar ilə müqavilələr edə bilər.

3-Qüreyşlilərdən biri, müsəlman olaraq da olsa, Məkkədən qaçıb Məhəmmədə sığındığı təqdirdə ekstradisiya ediləcək, amma Mədinədən Məhəmmədə pənah aparanlar ekstradisiya edilməyəcək.

4-Bu müqavilədən sonra Məkkədə İslam sərbəst olacaq və Məkkədə İslamı seçənlərə heç bir şəkildə inam və əqidəsindən dolayı əziyyət və işgəncə edilməyəcək.

---

[45] Tarixi Siyasi iqtisadi Sədr İslam, s.52-154

5-Muhəmməd (s), bu il Kəbəni ziyarət etmədən Mədinəyə geri qayıdacaq və gələn il silahsız olaraq Məkkəni ziyarət edə biləcək, amma burada üç gündən çox qalmayacaq[46].

İndi dünyanın biləndər və azad vicdanlı insanlarına müraciət edir və İslam dininin qılınc və qan oxlu bir ideologiya olduğunu iddia edənlərə deyirik ki: Bu sülh müqaviləsinin məzmununu diqqətlə oxuyun. Görəsən, tarixdə hansı şəxsiyyət Həzrəti Məhəmməd (s) qədər sülh və əmin-amanlıq bir mühitin yaranması üçün güzəştlər etmişdir? Sülh mətnində yer alan "bəsmələ" və "Məhəmməd Allahın peyğəmbəridir" - deyə yazdıqda müşriklər buna etiraz etmiş və Allah Rəsulu (s) sülh və sülhə zərər gəlməsin deyə o cümlələrin qaldırılmasına razı olmuşdur.

Həzrət Əli (ə) saziş mətninin bir sıra maddələrinə narahat olmuş, ancaq Allah Rəsulu (s) onları səbr və mətanətə dəvət etmişdir.

## PEYĞƏMBƏRİMİZİN (S) EYLƏ XRİSTİANLARIYLA SÜLHÜ

"Rəhman və rəhim olan Allahın adı ilə.

Bu, Allah və Peyğəmbəri Məhəmməd tərəfindən İncil, bin Rəviyyə və Eylə xalqına verilən amandır. Bu sazişə əsasən gəmilər və nəqliyyat vasitələri Allah və peyğəmbəri Məhəmmədin himayəsindədir. Qurudakı və dənizdəki vasitələri Eyləlilər ilə birlikdə olan Şam, Yəmən və Bəhreyn xalqı da Allahın və Peyğəmbər Məhəmmədin himayəsi altındadırlar. Onlardan kim

---

[46] Şiatu Rəsulillah, c.2, s.811 (İbn Hişam)

pis bir şeyə (cinayətə) səbəb olursa, özü xaric, malı qorunmayacaq və o mal alan şəxsə məxsusdur. İnsanların görmək istədikləri suya da istər qurudan, istər dənizdən hər hansı bir yolla mane olmağa hüquqları yoxdur[47]".

## PEYĞƏMBƏRİMİZİN (S) SİNA XRİSTİANLARI İLƏ SÜLHÜ

Bismillahir-rəhmanir-rəhim.

Bu, müjdələyici və qorxuducu olaraq göndərilən Allahın Peyğəmbəri Məhəmməd bin Abdullahın (məktubu) yazısıdır. Bu yazıyla dəlil başa çatdırılmış və Allahın peyğəmbərlərinə qarşı heç bir bəhanə və bəhanəyə yer qalmamışdır. Şübhəsiz ki, Allah əzm və hakimdir.

Yazdıqlarımı dinləyənlər, müsəlmanlar, qərbdəki xristianlar, yaxın-uzaq, ərəb-əcəm, tanınan və tanınmayan bütün insanlardır. Bu sazişə qarşı çıxan istər müsəlman olsun, istər qeyri-müsəlman həddi aşmış təcavüzkardır. Sazişə sadiq olmayanlar əslində Allahın vədinə sadiq olmamış, öz dini ilə istehza etmiş və Allahın lənətini haqq etmiş kimsələrdir. Bu insanlar (əhdi pozanlar) istər padşah olsun, istər müsəlman fərq etməz. Mən və yarənim dağda, düzdə, kilsədə və məbədlərində bir araya gəlmiş insanların mallarını və canlarını qoruyub saxlayacağıq. Çünki onlar mənimlə birlikdə sazişə imza atmışlar. Onlar, öz razılıqları olmadan heç bir şey ödəməyə məcbur edilə bilməz. Qadınlar, keşişlər, öz qabıqlarına çəkilmiş şəxslər və xarici qonaqlar heç bir şəkildə narahat olunmayacaq. Heç bir kilsə və məbəd dağıdılmayacaq və

---

[47] Şiatu Rəsulillah, c.2, s.974 (İbn Hişam)

mallarından heç bir şey müsəlmanın evinə girməyəcək. Zəngin və iş adamlarından təyin olunan vergidən çoxu alınmayacaq və onlar müharibə və cihada məcbur edilməyəcək.

[وَلَا تُجَادِلُوا أَهْلَ الْكِتَابِ إِلَّا بِالَّتِي هِيَ أَحْسَنُ]

"Kitab əhlinin zülm edənləri (cizyə verməyənləri, sizinlə vuruşmaq istəyənləri) istisna olmaqla, onlarla ən gözəl tərzdə müadilə edin![48]". Ayənin məzmunu: müsəlmanlar onları qoruyacaq və hər zaman onları utandıracaq və narahat edəcək şeylərdən uzaq saxlayacaqlar[49].

## PEYĞƏMBƏRİMİZİN (s) MÜXALİFLƏRİLƏ DAVRANIŞI

Tarixi oxuyanda Peyğəmbərimizin (s) əcnəbilər və müxalifləri ilə razılaşma və rahat mühiti icad etmə nöqtəsində ən sağlam metodunun şəfqət və məhəbbət olduğunu görürük. Allah Rəsulu (s) nəzakətli bir ruha sahib olduğu üçün görüşlərində əxlaqi prinsipləri gözləməyə olduqca diqqət yetirərdi. İslamiyyətin doğulduğu ilk gündən etibarən, Peyğəmbərin şəfqət və məhəbbəti başlamışdır. Ən qatı və cani düşmənlərindən bəzilərini belə bu gözəl mövqeyilə hidayət etməyə nail olmuşdur. Belə ki, Peyğəmbərimizin (s) həmin uğurunun sirri sahib olduğu uca şəfqət və insanları qucaqladığı geniş məhəbbətidir.

---

[48] Ənkəbut - 46
[49] Şiatu Rəsulillah, c. 2, s. 92 (İbni Hişam)

## ALLAH PEYĞƏMBƏRİNİN (S) QƏDDAR QÜREYŞ MÜŞRİKLƏRİNƏ RƏFTARI

Məkkə torpaqları müşriklərin mərkəzi idi. Kitab əhli azlıq təşkil etdiyinə görə orada rahat qala bilmirdilər. Müqəddəs İslam dini ilk dəfə bu ərazilərdə zühur etdi və Peyğəmbərimizin ilk dəvəti də müşriklərə oldu. Peyğəmbərin dəvəti, vəhy və təlimləri təsirli olub şəfqət və sevgi ilə davam etdi.

Peyğəmbər (s) Quranın məntiqə və sağlam dəlillərə əsaslanan ayələrini müşriklərə oxuyur və onlardan oxuduğu ayələr üzərində təfəkkür etmələrini, nəticəsində də cahiliyyət zəncirlərini parçalayıb əsir olmuş ruhlarını azadlığa buraxmalarını istədi. Ancaq müşriklər Peyğəmbərimizin həyat verən dəvəti qarşısında inkar yoluna gedərək Peyğəmbərə və dostlarına əziyyət, işgəncəyə başladılar. Müxtəlif ağır işgəncə və maneələrə baxmayaraq İslam, sürətlə qəlblərdə yer tutur və hər gün tərəfdarlarının sayı durmadan artırdı. Peyğəmbərimizin (s) gözəl əxlaqı, sevgisi və şəfqəti qarşısında aciz qalan müşriklər, bu dəfə İslamın sürətini və yayılmasını kəsmək üçün öz qəbilələrindən müsəlman olanlara işgəncə və əziyyət verməyə başladılar. Əmmarın ana və atası Qüreyş kafirlərinin şəhid etdiyi ilk müsəlmanlar olaraq tarixə keçdi. Əmmarın anası Sümmeyrə İslam tarixində Əbu Cəhlin nizəsiylə şəhid edilən ilk müsəlman qadındır.

Kafirlərin öndə gedənlərindən Hüseynin bin Xələf, Bilal Həbəşi çılpaq bir şəkildə isti qumlar üzərinə qoyub sinəsinə ağır daşlar qoyaraq işgəncə edəndə belə deyərdi: “Məhəmməd və onun dinindən dönüb Lat və Uzzaya sitayiş edənə qədər bu halda öləcəksən”. Bilal, bu işgəncələr altında "Tək, Tək" (Allah birdir)

cümləsini təkrar edirdi. Peyğəmbərimiz (s) bir ovuc səhabələrinin belə ağır işgəncə və əziyyətlərə məruz qaldığını görüncə belə buyurdu: "Kaş Həbəşəyə getsəydiniz. Həbəş padşahı yanında kimsə zülm və haqsızlığa məruz qalmaz. O bölgə düzgünlük yeridir, ümid edirəm ki, Allah bu çətinliklərdən çıxış yolu göstərər50".

Məkkə müşriklərinin amansız işgəncə və zülmləri qarşısında yeni müsəlmanlar ilk hicrətlərini həyata keçirmişdilər. Evlərini, yurdlarını tərk edib Həbəşistana hicrət etdilər.

Həbəşəyə hicrət edən müsəlmanlar orada da Məkkə müşriklərinin əziyyət və təzyiqlərindən xilas ola bilməmişdilər. Müşriklər Həbəşə padşahının yanına gedərək ondan mühacirləri geri göndərməsini tələb etdilər. Ancaq Həbəş padşahı onların bu tələbini rədd etdi.

Məkkə müşrikləri hər keçən gün təzyiq və əziyyətlərinə bir yenisini əlavə edir və getdikcə də zülmlərini ikiqat artırırdılar. Qüreyş müşrikləri bir araya gələrək Peyğəmbər (s) və dostlarına qadağa tətbiq edərək onlarla hər cür mübadiləni yasaqladılar. Üç il davam edən embarqoda Həzrət Əbu Talib (ə) gizlincə Peyğəmbər (s) və yoldaşlarının zəruri və əsas ehtiyaclarını təmin edirdi51.

Məkkə müşrikləri bunlarla da kifayətlənmədi. Kin və düşmənçiliklərinə bir yenisini əlavə edərək bu dəfə də Allah Peyğəmbərini öldürmək qərarı aldılar. Bu məqsədlə Darun-Nədvə deyilən yerdə bir araya gəldilər. Peyğəmbər və müsəlmanlar

---

[50] Tarixi İslam Peyğəmbəri, s.127

[51] Tarixi İslam, s.106-111

əleyhinə edilən hər cür fəaliyyətin içində yer alan Əbu Cəhl, öldürülmə qərarının alındığı iclasda, hiyləgər fikri özü ortaya atdı. Peyğəmbərimizin (s) öldürülməsinin hər hansı bir qəbilə və ya şəxs üzərinə olmaması üçün, hər qəbilədən güclü bir nəfərin seçilməsini, seçilənlərdən ibarət olacaq şəxslərin qətl işini həyata keçirməsini planlaşdırdı. Bu gənclər əllərindəki xəncərlərlə, hamı birlikdə Peyğəmbərimizə (s) hücum edəcək və onun kim tərəfindən öldürüldüyü məlum olmayacaqdı. Beləliklə də, Peyğəmbərimizin (s) qəbiləsi ilə doğacaq bir qan davasının da pulu ödənərək qarşısı alınmış olacaqdı.

Uca Allah, Peyğəmbəri (s) müşriklərin bu hiyləgər planından xəbərdar etmək üçün Qurani-Kərimdə bu barədə belə bir ayəsiylə vəhy etdi:

[وَإِذْ يَمْكُرُ بِكَ الَّذِينَ كَفَرُواْ لِيُثْبِتُوكَ أَوْ يَقْتُلُوكَ أَوْ يُخْرِجُوكَ وَيَمْكُرُونَ وَيَمْكُرُ اللّهُ وَاللّهُ خَيْرُ الْمَاكِرِينَ]

(Ya Rəsulum!) Yadına sal ki, bir zaman kafirlər səni həbs etmək və ya öldürmək, yaxud da (Məkkədən) çıxardıb qovmaq üçün (Darun-nədvədə) sənə qarşı hiylə qururdular. Allah da (onların bu hiyləsinə qarşı) tədbir tökdü. Allah tədbir tökənlərin ən yaxşısıdır[52]!

Allah Peyğəmbəri də (s) o gecə Həzrət Əlini (ə) öz yatağına uzadaraq doğulduğu Məkkədən Mədinəyə hicrət etdi. Uca Allah Peyğəmbərimizi bu hicrətin acısından dolayı təsəlli edib buyurur:

---

[52] Ənfal - 30

[إِنَّ الَّذِي فَرَضَ عَلَيْكَ الْقُرْآنَ لَرَادُّكَ إِلَى مَعَادٍ]

(Ya Rəsulum!) Quranı (oxumağı və təbliğ etməyi, yaxud hökmlərinə əməl etməyi) sənə vacib buyuran (Allah) qayıdacağın yerə (hicrət edərək çıxdığın Məkkəyə) səni yenə də qaytaracaqdır[53].

Məkkə müşrikləri, Peyğəmbərin və müsəlmanların Mədinəyə hicrət etmələrinə baxmayaraq, onları orada da rahat buraxmadılar. Müşriklər, tam təchizatlı qoşunlarıyla növbə ilə Bədr, Ühüd və Xəndək (Əhzab) müharibələrini başlayaraq kin və düşmənçiliklərinə davam etdilər.

Allah Rəsulu Məkkədə məruz qaldığı amansız işgəncə, zülm və əziyyətdən sonra hicrətin altıncı ilində bir qrup səhabəsi ilə birlikdə həcc ziyarəti üçün Məkkəyə hərəkət etdi. Müsəlmanların Məkkəyə doğru yola çıxdığını xəbər alan müşriklər, qılınclarına əl atıb, müsəlmanları Məkkəyə daxil olmağa qoymayacaqlarına dair andlar edərək döyüş hazırlığına başladılar.

Peyğəmbərimiz, əsgər və silah baxımından müşriklərdən daha güclü olmasına baxmayaraq onlarla saziş yolları axtarırdı. Allahın Peyğəmbəri səlahiyyətli elçisini müşriklərlə danışıqlara göndərərək hədəfinin yalnız həcc səfəri olduğunu, müharibə və sərtliyə ehtyac olmadığını çatdırdı.

Müşriklər Peyğəmbərin bu elçisini öldürərək müqaviləni rədd etdilər. Allahın Peyğəmbəri sülh üçün ikinci dəfə elçi göndərərək

---

[53] Qasas - 85

qan axıdılmamasını istədi. Müşriklər, sazişə ağır şərtlər qoyaraq sülhü qəbul etdilər.

İslam və onun şəfqət Peyğəmbərinin qılınc və sərtlik tərəfdarı olduğunu iddia edənlərdən soruşmaq lazımdır: Görəsən, O, Qüreyş müşriklərinin bu qədər təzyiq, əziyyət, zülm və işgəncə sonrası necə bir mövqe nümayiş etdirməli idi?

Peyğəmbərimizin məntiqində sevgi, məhəbbət, dostluq, ehtiram və hörmət əsasdır. Bunları həyata keçirmək məqsədilə kin, nifrət və qisası kənara itələyib, dinc bir mühit yaratmaq üçün bütün qanuni haqlarından imtina etmişdir. Peyğəmbərimizin bu qədər yaxşı niyyətinə baxmayaraq, müşriklər müqaviləni pozaraq atalarından miras aldıqları kin və nifrətlərinə davam etdilər.

Allah Rəsulu (s), Allahın köməyi ilə 10 min nəfərlik orduya malik olmasına baxmayaraq, qan tökmədən Məkkəni fəth etdi. Rəhmət və şəfqət Peyğəmbərinin (s), əsgərlərindən birinin "Bu gün intiqam günüdür, bu gün nüfuzların ayaqlar altına alındığı gündür və bu gün Allahın Qüreyşi rəzil etdiyi gündür",- deyə fəryad etdiyini eşidəndə dərhal reaksiya verərək belə buyurdu: "Bu gün rəhmət günüdür, bu gün Allahın Qüreyşə izzət bəxş etdiyi gündür".

Allah Peyğəmbərinin (s) bəsirət və fərasəti daha dünənə qədər intiqam atəşiylə yanan ürəklərə sevgi toxumlarını əkdi və sülhsevər ruhu bütün intiqam və nifrət hisslərini sevgi və şəfqətə çevirdi.

Müşriklər Kəbəyə sığınmışdılar. Allah Rəsulu (s) Kəbəyə gəldi. Müşriklərin gözü Peyğəmbərin ağzındaydı. Qorxu və dəhşət gözlərindən oxunurdu. Maraqla onlara nə ediləcəyini gözlə-

yirdilər. Qorxulu gözlərlə Peyğəmbərə və ətrafa boylanıb dururdular. Allah Peyğəmbəri Kəbə qapısının həlqəsindən tutaraq belə buyurdu:

“Allaha şükrlər olsun ki, vaxtı tamam oldu, məni müzəffər qıldı və düşmənləri məğlub etdi”.

Sonra Kəbəyə dönərək belə buyurdu: “Ey Qüreyşlilər, haqqınızda necə bir hökm verməyimi gözləyirsiniz"? Məkkə müşrikləri:- "Biz, səndən xeyir və yaxşılıqdan başqa bir şey gözləmirik. Sən bağışlayan, böyüklük və əzəmət sahibisən və artıq güc və qüdrət sizin ixtiyarınızdadır",- deyə cavab verdilər. Peyğəmbərimiz (s) onlara xitabən belə buyurdu: "Bu gün mən sizlərə qardaşım Yusifin (ə) qardaşlarına dediyini deyirəm:- Bu gün, qınama və məzəmmət günü deyil, hamınız gedin, artıq azadsınız”.

Rəhmət və şəfqət Peyğəmbərinin (s) müşrikləri ümumi bir əfv ilə bağışlamasından sonra Məkkə ərazisində böyük bir inqilab başladı və Quranın təbiri ilə müşriklər, qruplar halında İslamiyyətə daxil olmağa başladılar.

[وَرَأَيْتَ النَّاسَ يَدْخُلُونَ فِي دِينِ اللَّهِ أَفْوَاجًا]

“İnsanların dəstə-dəstə Allahın dininə (islama) daxil olduqlarını gördüyün zaman[54]”...

---

[54] Nəsr - 2

## PEYĞƏMBƏRİMİZİN YƏHUDİLƏRƏ QARŞI DAVRANIŞI

Birliklərini itirən yəhudilər vətənlərini və torpaqlarını tərk edərək müxtəlif bölgələrə səpələndilər. Yəhudilərdən bir qrup da Mədinəyə hicrət etdi. Bəni Qureyzə, Bəni Kaynuka və Bəni Nəzir Mədinənin ən tanınmış yəhudi qəbilələri idi. Bu qəbilələr can təhlükəsizliklərini və varlıqlarını davam etdirmək üçün Ərəb tayfalarına hədiyyələr və vergilər ödəyərək müqavilə edirdilər.

Allahın Rəsulu (s) Mədinəyə hicrət etdikdən sonra, nizam-intizamın və əmin-amanlığın təmin olunması üçün aralarında mədinəli yəhudilərin də olduğu Ovs, Xəzrəc və digər qəbilələrlə sülh müqaviləsi yazıb imzaladı. Bu sazişə görə yəhudilər, müsəlmanlara zərər verməyəcək, lazım gəldikdə Mədinə və müsəlmanların qorunmasına da yardım edəcəkdilər. Bunun qarşılığında isə Peyğəmbərimiz (s) yəhudilərin bütün hüquqlarını qoruyacaq və onları öz tayfasından ayırmayacaqdı.

Yəhudilər, Mədinədə dinc və təhlükəsiz şəraitində ticarətlərini edərək dolanışıqlarını təmin edirdilər. İslamiyyətin bu qədər uğurla irəliləməsi, Peyğəmbərin (s) təbliğatının, güc və şəfqəti qəbilələr üzərində olduqca təsirli olması və yəhudi alimlərinin İslamı qəbul etməsindən dolayı bəzi münafiq və yəhudilər, İslam və Peyğəmbər (s) əleyhinə mənfi təbliğatlara başladılar.

Müsəlmanlarla sülh müqaviləsi imzalayan yəhudilər, əhdlərindən dönərək İslamı zəiflətmək üçün İslam düşmənləri ilə əməkdaşlıq edib onların cərgəsində yer aldılar. Bütün bunlara baxmayaraq, şəfqət və mərhəmət Peyğəmbəri (s) onları əfv edib, xəyanətlərini bilərəkdən görməməzlikdən gəldi. Heç bir şey olmamış kimi yəhudilərin iclaslarına, dəfn mərasimlərinə qatılır,

xəstələrini ziyarətə gedər, dərdləri ilə məşğul olar və onlarla ticarət edərdi. Mədinə müsəlmanları da yəhudiləri özlərindən saymış və onları öz qardaşları kimi bağırlarına basmışdır. Yəhudilər, mübadilələrini, ticarətlərini, gündəlik fəaliyyətlərini, öz inanclarını heç bir təzyiq olmadan sərbəst şəkildə keçirirdilər. Allah Peyğəmbərinin, İslami dəvətini və ilahi əhdi bütün dünyaya təqdim etdiyi kimi, yəhudilərə də təqdim edib və heç bir zaman öz əqidələrindən dönməmələri üçün onlara təzyiq etmədi. Çünki Allah Rəsulu (s) risalətini bütün dünyaya yaymaq istəyirdi və üzərinə götürdüyü missiyanın özündə təzyiq, təhdid və zorakılığın yeri yox idi. Belə ülvi bir dəvət, qan və müharibədən uzaq, ancaq dinc bir mühitdə təsirli olardı. İslam Peyğəmbəri, ilk fürsətdə Hudeybiyə Sülh Müqaviləsini edərək ilahi dəvətinin yayımına başladı. Diqqət edilməlidir ki, Peyğəmbərin İslama dəvətinin əsası lap əvvəldən sülh, sevgi və qardaşlıq üzərində inşa edilmişdir.

## PEYĞƏMBƏRİMİZİN (s) YƏMƏNİN YƏHUDİ VƏ XRİSTİANLARINA MÜNASİBƏTİ

Allah Peyğəmbəri Yəmən xalqının hidayət və irşadı üçün göndərdiyi elçisinə - Ömər bin Hazməyə idarəçilik haqqında bir sıra tapşırıqlar vermişdir. Həmin təlimatda belə deyilmişdir: -“Hər bir yəhudi və xristian, müsəlman olarsa, mömin və müsəlmanların sahib olduğu haqq və hüquqa sahib olur. Öz dini etiqadlarında sabit qalan yəhudi və xristianlara din və inanclarından imtina etmələri barədə heç bir təzyiq və məcburiyyət edilməyəcəkdir”.

## PEYĞƏMBƏRİMİZİN (s) NÜMUNƏVİ SƏBRİ

Allah Peyğəmbəri (s) peyğəmbərliyi boyunca müxtəlif çətinliklərlə qarşılaşmışdır. Qövmündən kafir olanlar və müşriklər ona qarşı son dərəcə qəlbə toxunan sözlər deyiblər, hətta cadugərlik və dəlilik kimi ittihamlar da etmişdilər. Bəziləri də Peyğəmbərimizi öldürmək belə istəmiş və bunun üçün planlar qurmuşdular. Buna baxmayaraq, Peyğəmbərimiz (s) hər mədəniyyətdən və xarakterdən insanı tərbiyə etməyə, onlara Qurana görə də, gözəl əxlaqı, gözəl davranışı öyrətməyə çalışıb. Quran ayələrində bildirildiyi kimi, bəzi adamlar ən əsas etika qaydalarından belə xəbərsiz olduqları üçün, Peyğəmbərimiz (s) kimi incə düşüncəli yüksək əxlaqlı bir insana sıxıntı verici davranışlarda olduqlarını düşünməmişdilər. Peyğəmbərimizin isə bütün bunlara qarşı böyük bir səbr göstərib hər halda Allaha üz tutaraq Allahın köməyini istəmiş və möminlərə də səbri və təvəkkülü tövsiyə etmişdir.

Allah Rəsulu, yəhudilərin pis və kobud davranışlarına da mətanət və səbrlə cavab verirdi. Onların səhvlərinə göz yumur və aralarındakı sazişə sadiq qalırdı. Əhdlərini pozanları görəndə də yalnız cinayətkarı cəzalandırırdı.

Məsələn, Kabb Əşrəf və Salam bin Əbi Haqqın, müsəlmanlara xəyanət edəndə yalnız o ikisini cəzalandırmış, digər yəhudilərə toxunmamışdır. Hətta əhdlərini pozan bəzi yəhudiləri cəzalandıranda İslami ədalət cizgisindən bir an olsun çıxmamışdır.

Peyğəmbərimizin iftixar dolu yaşayışına baxanda, yəhudilərə məkkəli müşriklərdən daha yumşaq və gözəl bir davranış göstərdiyinə şahid olarıq.

## PEYĞƏMBƏR (s) VƏ YƏHUDİ TƏHSİL MƏRKƏZİ

Yəhudilər, Mədinədəki təhsil mərkəzlərində sərbəst təlim və təbliğatlarını davam etdirirdi. Peyğəmbərimiz və müsəlmanlar, heç bir şəkildə onların təhsillərinə mane olmurdu. Əksinə Allah Rəsulu, onların məktəblərini ziyarət edir, yəhudi alimlərilə mübahisələr edir, İslam dinini təbliğ edirdi.

Bir gün Allah Rəsulu, yəhudilərin elm mərkəzlərindən birinə gedərək, oradakıları öz dininə dəvət etdi. Yəhudilərin böyük alimlərindən, həmçinin də Həris:- “Bizi hansı din və etiqada dəvət edirsən?”,-deyə soruşdu. Allah Rəsulu (s): “Sizi Həzrət İbrahimin dininə dəvət edirəm” buyurdu.

Onlar: “Bizim dinimiz sənin dinindən daha nəcib və köklüdür. Çünki,- “İbrahimin özü də yəhudidi”,- dedilər. Onların bu cavabları üzərində Allahın Rəsulu (s): “O halda, Tövratı gətirin aramızda hakim olsun”,- buyurdu. Yəhudilər, həqiqətin ortaya çıxmasından üz çevirərək Tövratı gətirməkdən yayındılar. Buna görə Uca Allah onları Ali-İmran surəsinin 23-cü ayəsində belə pisləmişdir:

أَلَمْ تَرَ إِلَى الَّذِينَ أُوْتُواْ نَصِيبًا مِّنَ الْكِتَابِ يُدْعَوْنَ إِلَى كِتَابِ اللّهِ لِيَحْكُمَ بَيْنَهُمْ ثُمَّ يَتَوَلَّى

فَرِيقٌ مِّنْهُمْ وَهُم مُّعْرِضُونَ]

Kitabdan (Tövratdan) özlərinə bir pay (qismət) verilmiş kimsələri görmürsənmi? Onlar öz aralarında hökm vermək üçün Allahın kitabına (istinad etməyə) dəvət olunurlar. Sonra onların

bir qismi (Tövratın hökmlərindən) üz döndərir. Onlar (həmişə) dönüklük edəndirlər (haqdan üz çevirəndirlər)[55].

Yenə bir gün Peyğəmbərimiz yəhudi məktəblərindən birinə getmişdi. Yəhudi və xristian alimlərdən bir qrupu münazara edərkən gördü. Hər bir qrup, Həzrət İbrahimin (ə) öz dinlərinə mənsub olduğunu müdafiə edirdi[56]. Qurani Kərim, hər iki qrupun da iddiasını rədd edərək onlara bu ayə ilə cavab verdi:

مَا كَانَ إِبْرَاهِيمُ يَهُودِيًّا وَلاَ نَصْرَانِيًّا وَلَكِن كَانَ حَنِيفًا مُّسْلِمًا وَمَا كَانَ مِنَ الْمُشْرِكِينَ]

İbrahim nə yəhudi, nə də xaçpərəst idi. O ancaq hənif (batildən haqqa tapınan, haqqa yönəlmiş olan) müsəlman (Allaha təslim olan) idi və (Allaha) şərik qoşanlardan deyildi[57].

Əziz oxucular, yuxarıda bildirilən hadisədən də göründüyü kimi Allah Rəsulu (s) müqəddəs İslam və din təbliğatını ağıl və dəlil üzrə etmiş, hər bir inanc nümayəndəsini öz qəbul etdikləri kitablara (Tövrat və İncil) dəvət etmiş və hər cür təzyiq və zorakılıqdan uzaq durmuşdur. Hətta Peyğəmbərimiz, bir-birilərini batil və kiçik görən müsəlmanları tutduqları mövqelərinə görə pisləmişdir. Qurani Kərim, onların bir-birini alçaltmalarını belə ifadə edir:

---

[55] Ali İmran - 23
[56] Menşur-u Cavid, c.1, s.295-296
[57] Ali İmran – 67

[وَقَالَتِ الْيَهُودُ لَيْسَتِ النَّصَارَى عَلَى شَيْءٍ وَقَالَتِ النَّصَارَى لَيْسَتِ الْيَهُودُ عَلَى شَيْءٍ وَهُمْ يَتْلُونَ الْكِتَابَ كَذَلِكَ قَالَ الَّذِينَ لاَ يَعْلَمُونَ مِثْلَ قَوْلِهِمْ فَاللّهُ يَحْكُمُ بَيْنَهُمْ يَوْمَ الْقِيَامَةِ فِيمَا كَانُواْ فِيهِ يَخْتَلِفُونَ]

Yəhudilər dedilər: "Xaçpərəstlər (dində düzgün və mötəbər) bir şeyə istinad etmirlər". Xaçpərəstlər də: "Yəhudilər (dində düzgün və mötəbər) bir şeyə istinad etmirlər", -söylədilər. Halbuki onların hər ikisi kitab (Tövrat və İncil) oxuyur. (Kitab əhli olmayan və yazıb-oxumaq) bilməyənlər də onlar kimi danışdılar. Allah onların aralarındakı bu ixtilafın hökmünü qiyamət günü verəcəkdir[58]!

## YƏHUDİLƏRİN SUİ-QƏSDLƏRİ

1-Etiqada bağlı şübhələr: Peyğəmbərin şəfqət və məhəbbət dolu təbliğat üsulu ilə müsəlmanların sayı hər ötən gün artmaqda idi. Peyğəmbərimizin uğurlu təbliğatı və müsəlmanların saylarının günü-gündən çoxalmasından narahat olan bəzi yəhudi alimləri bir sıra şeytani vəsvəsələrlə müsəlmanların etiqad və inanclarını zəiflədib, onları şübhəyə salmaq üçün işlər görməyə başladılar. Məaz və Əmmar kimi möminləri öz dini etiqadlarına dəvət etdilər. Yəhudilərin bu şeytani məkr və hiylələri qarşısında uca Allah müsəlmanları belə xəbərdar etmişdir.

[وَدَّت طَّآئِفَةٌ مِّنْ أَهْلِ الْكِتَابِ لَوْ يُضِلُّونَكُمْ وَمَا يُضِلُّونَ إِلاَّ أَنفُسَهُمْ وَمَا يَشْعُرُونَ]

[58] Bəqərə - 113

Kitab əhlindən bir dəstə sizi yolunuzdan sapdırmağı arzu etdikləri halda, yalnız özlərini düz yoldan sapdırırlar, lakin onlar bunu dərk etmirlər[59].

Uca Allah başqa bir ayəsində yəhudilərin şeytani təbliğatını belə bəyan edir:

[وَدَّ كَثِيرٌ مِّنْ أَهْلِ الْكِتَابِ لَوْ يَرُدُّونَكُم مِّن بَعْدِ إِيمَانِكُمْ كُفَّاراً حَسَدًا مِّنْ عِندِ أَنفُسِهِم مِّن بَعْدِ مَا تَبَيَّنَ لَهُمُ الْحَقُّ فَاعْفُواْ وَاصْفَحُواْ حَتَّى يَأْتِيَ اللّهُ بِأَمْرِهِ إِنَّ اللّهَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ]

(Ey möminlər!) Kitab əhlindən bir çoxu həqiqət onlara bəlli olduqdan sonra belə, təbiətlərindəki həsəd (paxıllıq) üzündən sizi, iman gətirmiş olduğunuz halda, yenidən küfrə sövq etmək istərlər. Allahın əmri gəlincəyə qədər (hələlik) həmin şəxsləri əfv edin və onları qınamayın (onlardan üz çevirməyin). Şübhəsiz ki, Allah hər şeyə qadirdir[60]!

2-İxtilaf çıxarmaq üzrə şübhələr: Yəhudi alimlərinin şübhəyə salan şeytani vəsvəsə və sualları müsəlmanları İslam dinindən uzaqlaşdırmadı, əksinə, onların sualları insanların Peyğəmbər və dinə olan inamlarını daha da gücləndirdi. Şüurlu və məqsədli sualları bəzi bütpərəst və yəhudilərin qəflətdən ayılmasına, hətta İslamı seçməsinə vəsilə oldu. Yəhudilər, bu dəfə başqa bir hiyləyə əl atdılar və müsəlmanlar arasında etnik kimliklərlə bağlı bir traybalizmi - bir fitnəni çıxarmağa çalışdılar.

---

59 Ali İmran – 69
60 Bəqərə - 109

Bir gün, yəhudilərdən biri, aralarında 120 illik ədavəti olan iki böyük qəbilə Ovs ilə Xəzrəci vəhdət və məhəbbət içində görəndə bu mənzərə qarşısında son dərəcə narahat oldu. Sevgi və qardaşlıq mənzərəsinə öyrəncəkli olmayan yəhudi, fitnə odunu qızışdırmaq üçün yanında olan yəhudi gəncə; "Get, onlara keçmişdəki düşmənçilik və münaqişələrini xatırlat!" - dedi.

Yəhudi gəncin şeytani sözləri ilə, iki böyük qəbilə olan Ovs ilə Xəzrəc arasında fitnə atəşi o həddə yüksəldi ki, az qala bir-birinə qılınc çəkib vuruşmaq həddinə gələlər. Bu ixtilaf və fitnə atəşindən xəbərdar olan Allah Peyğəmbərinin bir qrup əshabi ilə birlikdə Ovs və Xəzrəc tayfalarına gedərək onlara İslam dininin həyat verən müddəa və hədəflərini xatırlatdı. Sonra onlara belə buyurdu:

"İslam dini, sizin qəlblərinizi birləşdirdi və sizi bir-birinizə qardaş etdi. Artıq bütün kin və nifrətinizi unudun". Allah Rəsulu (s) onlara o qədər nəsihət edib ki, hər iki qəbilə səhvlərinin fərqinə vararaq peşmançılıqlarını göz-yaşlarıyla göstərdilər[61].

3-Silahlı mübarizə: Yəhudilərin hiylə və qaydaları Peyğəmbərin hicrətin ilk günündən etibarən başlamışdı. Allah Rəsulu (s), onların intriqalarını böyük bir səbr və mətanətlə dəf edirdi. Yəhudilər, soyuq müharibələrini isti müharibəyə çevirdilər. Mədinə ətrafında yaşayan üç böyük yəhudi qəbiləsi müsəlmanlarla imzaladıqları sülh sazişi və müqavilələrini tapdalayaraq müsəlmanlar əleyhinə fəaliyyətlərə başladılar.

---

[61] Tarixi İslam, c.1, s.555

Bəni Kaynuka qəbiləsinə mənsub bir adam Mədinə bazarında bir müsəlmanı öldürdü. Rəsulu Əkrəm (s) yəhudilərin bu cinayəti qarşısında müharibə və qan tökülməməsi üçün əhdə sadiq qalmayan Bəni Kaynuka qəbiləsindən Mədinəyi tərk etmələrini istədi. Bu hadisənin dərhal arxasınca Bəni Nəzir qəbiləsi başqa bir intriqayla boy göstərdi və Peyğəmbərə (s) sui-qəsd planı hazırladı. Dağın üstündən böyük bir daşı yuvarlayaraq Peyğəmbəri öldürməyi qarşılarına məqsəd qoymuşdular. Bəni Nəzir qəbiləsinin sui-qəsd planından xəbərdar olan Allah Rəsulu (s) əshabi ilə Bəni Nəzir qalasını mühasirəyə aldı. Küncə sıxılan yəhudilər sülh təklif etdilər. Allah Rəsulu (s) onlardan daşınan mallarını saxlamalarını və Mədinəyi tərk etmələri şərtilə sülh təkliflərini qəbul etdi. Bir qrup yəhudi, Zeynəb adında yəhudi bir qadını aldadıb qızışdırmağa başladılar. Yəhudi qadın bişirdiyi ətə zəhər qataraq Peyğəmbərə hədiyyə göndərdi. Peyğəmbərimiz (s) ətdən bir tikə ağzına qoydu, ətin zəhərli olduğunu fərq edərək dərhal çıxardı. Yəhudi qadını Allah Peyğəmbərinin (s) hüzuruna gətirdilər. Peyğəmbər (s) qadına: -"Niyə bunu mənə etdin?",- deyə soruşdu. Yəhudi qadın: -"Sən, qəbilələrin rahatlığını pozdun, öz-özümə əgər Məhəmməd hökmdardısa bu zəhərin təsirilə öləcək və əgər peyğəmbərdirsə? ətin zəhərli olduğundan xəbərdar olacaqdır!" - dedim.

Peyğəmbərimiz, şəfqət və mərhəməti ilə yəhudi qadını və ona bu işdə kömək edənləri bağışladı.

Peyğəmbərin (s) dininin qılınc və qan dini olduğunu deyənlərdən soruşuruq; Görəsən bu hadisənin bir bənzəri bu gün hər hansı bir ölkənin kral və rəhbərinə aparılsaydı? bu işi törədənə qarşı necə davranardılar"? Bu sualın cavabını oxucuların insaf və

ədalətinə buraxırıq. Diqqət etsək, rəhmət və şəfqət Peyğəmbəri onu öldürməyə cəhd edən və ümməti arasında fitnə və fəsad edənləri öldürməmişdir. Hər dəfə sülh və təhlükəsizliyi önə keçirmiş, qan tökülməməsi üçün mümkün mühiti yumşaltmış və cinayətkarları əfv etmişdir.

## ÜÇÜNCÜ BÖLÜM

## İSLAMDA BARIŞ

İslam kəlməsi ərəb dilində "sülh" kəlməsi ilə eyni mənaya gəlir. İslam, Allahın sonsuz mərhəmət və şəfqətini yer üzündə təcəlli etdiyi dinclik və barış dolu bir həyatı insanlara təqdim etmək üçün endirilmiş bir dindir. Allah bütün insanları, yer üzündə mərhəmətin, şəfqətin, xoş münasibətin və sülhün yarana və yaşaya biləcəyi model olaraq məhz İslam əxlaqına çağırır. Bəqərə surəsində belə buyurulur:

Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə (İslama) gəlin! Şeytanın yolu ilə getməyin, çünki o, sizin açıq düşməninizdir[62]!

Ayədən də göründüyü kimi, Allah insanların güvənliyini ancaq İslama girilməsi, Quran əxlaqının yaşanması ilə əldə olunacağını bildirir. Allah, insanlara pislik etməkdən çəkinməyi əmr etmiş, söyüş, üsyanı, zülmü, zorakılığı, öldürməyi, qan tökməyi qadağan etmişdir. Allahın bu əmrinə itaət etməyənlər, ayənin ifadəsi "şeytanın yolu ilə gedənlər" kimi tərif edilmiş və açıq şəkildə Allahın haram etdiyi bir rəftar içərisinə girmişlər. Quranda bu mövzudakı bir çox ayədən yalnız ikisi belədir:

"Allahla əhd bağladıqdan sonra onu pozanlar, Allahın birləşdirilməsini əmr etdiyi şeyləri (qohumluq əlaqələrini) qıranlar, yer üzündə fitnə-fəsad törədənlər isə lənətə düçar olacaqlar. Onları pis yurd (Cəhənnəm, o biri dünyanın pislikləri) gözləyir[63]".

---

[62] Bəqərə - 208
[63] Rad – 25

“Allahın sənə verdiyindən özünə axirət qazan (malını Allah yolunda sərf et). Dünyadakı nəsibini də unutma. (O maldan qismətinin ancaq bir kəfən olduğunu bil. Pulunu mənasız yerə sağa-sola səpələmə. Səhhətinin, sərvətinin, gəncliyinin qədrini bil. Sabah səni Allahın əzabından qurtara biləcək yaxşı əməllər et). Allah sənə (sərvət verməklə) yaxşılıq etdiyi kimi, sən də (varından yoxsullara, qohum-əqrəbaya xərcləməklə) yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə cəhd göstərmə. Həqiqətən, Allah fitnə-fəsad törədənləri sevməz![64]”.

Göründüyü kimi, Allah, İslam dinində, terror, şiddət mənalarını da əhatə edən hər cür fitnə-fəsad hərəkətini qadağan etmiş və bu cür bir hərəkət içində olanları lənətləmişdir. Müsəlman dünyanı gözəlləşdirən, abad edən insandır. İnsanların fikir, düşüncə və həyat azadlığını açıqca təmin edən və zəmanət altına alan bir din olan İslam, insanlar arasında gərginliyi, anlaşılmazlığı, bir-birlərinin haqqında mənfi danışmağı və hətta mənfi düşüncəni (zənn) belə maneə törədən və qadağan edən əmrlər gətirmişdir. Sadəcə terror və müxtəlif zorakılıq aktları deyil, İslam, insanların üzərində fikri olaraq belə ən kiçik bir təzyiq qurulmasını qadağan etmişdir. “Sən onların üzərində hakim deyilsən![65]”.

İnsanların bir dinə inanmağa və ya o dinin ibadətlərini yerinə yetirməyə məcbur edilməsi İslamın özünə və ruhuna ziddir. Çünki İslam, inanc üçün azad iradə və vicdanı şərt qoşur. Əlbəttə ki, müsəlmanlar bir-birlərini Quranda izah edilən əxlaqi xüsusiyyətlərin tətbiq olunması üçün xəbərdarlıq edib, təşviq edə bilərlər.

---

[64] Qasas - 77
[65] Ğaşiyə - 22

Amma heç vaxt bu mövzuda bir məcburiyyət yoxdur. Ya da dünyəvi bir imtiyaz tanınaraq, insan dini həyata keçirməyə istiqamətləndirilməz.

Bunun əks bir cəmiyyət modeli fərz edək. Məsələn, insanların ibadət etməyə çətinlik çəkdiklərini fərz edək. Belə bir cəmiyyət modeli İslama tamamilə ziddir. Çünki inanc və ibadət, yalnız Allaha istiqamətli olanda bir dəyər daşıyır. Əgər bir sistem insanları inanca və ibadətə məcbur edəcək olsa, bu vəziyyətdə insanlar o sistemdən qorxduqları üçün dindar olurlar. Din baxımından məqbul olan isə, vicdanların tamamilə sərbəst buraxıldığı bir mühitdə Allah rizası üçün  baş verməsidir.

Bir insanı günahsız yerə öldürmək, Qurana görə ən böyük günahlardan biridir: "Buna görə də İsrail oğullarına (Tövratda) yazıb hökm etdik ki, hər kəs bir kimsəni öldürməmiş (bununla da özündən qisas alınmağa yer qoymamış) və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur. Bizim peyğəmbərlərimiz onlara (İsrail oğullarına) açıq möcüzələr gətirmişdilər. Bundan (bu möcüzələrdən) sonra da onların bir çoxu yer üzündə (küfr, qətl və cinayət etməklə) həddi aşdılar[66]".

"Onlar Allahla yanaşı başqa bir tanrıya ibadət etməz, Allahın haram buyurduğu cana nahaq yerə qıymaz (onu öldürməz), zina etməzlər. Hər kəs bunu (bu işləri) etsə, cəzasını çəkər[67]".

---

[66] Maidə - 32
[67] Furqan - 68

Yuxarıdakı ayələrdə də görüldüyü kimi, məsum insanları haqsız yerə öldürən kəslər böyük bir əzabla təhdid edilmişlər. Allah tək bir adamı öldürməyin, bütün insanları öldürmək qədər ağır bir cinayət olduğunu xəbər vermişdir. Allahın sərhədlərini qoruyan bir insanın deyil, minlərlə günahsız insanı qətlə yetirmək, tək bir insana belə zərər vermə ehtimalı yoxdur.

Dünyada ədalətdən qaçaraq cəzadan xilas olacağını güman edənlər, öldükdən sonra axirətdə Allahın hüzurunda verəcəkləri hesabdan əsla qaça bilməyəcəklər. Elə bu səbəbdən ölümlərindən sonra Allaha hesab verəcəklərini bilən möminlər Allahın sərhədlərini qorumaqda böyük səy göstərirlər.

Quranda tərif edilən İslam son dərəcə müasir, işıqlı, mütərəqqi bir quruluşa malikdir. Həqiqi müsəlman, hər şeydən əvvəl, sülhsevər, tolerant, demokrat ruhlu, mədəniyyətli, aydın, dürüst, sənətdən və elmdən anlayan, mədəni bir şəxsiyyət quruluşuna malikdir.

Quranın gətirdiyi gözəl əxlaqla böyüyən bir müsəlman, hər kəsə İslamın nəzərdə tutduğu sevgi ilə yanaşır. Hər cür fikrə qarşı hörmətlidir. Estetika və sənətə qiymət verir, hadisələr qarşısında hər zaman uzlaşdırıcı, gərginliyi azaldan, qucaqlayıcı, təmkinli davranış nümayiş etdirər. Belə insanların yaratdıqları cəmiyyətlərdə isə bu gün ən müasir dövlətlər arasında göstərilən ölkələrdən daha inkişaf etmiş bir mədəniyyət, yüksək bir ictimai əxlaq, sevinc, rahatlıq, ədalət, təhlükəsizlik, bolluq və bərəkət hakim olacaqdır.

Qurani-Kərimin Əraf surəsinin 199-cu ayəsinin - "Sən əfv yolunu mənimsə" sözləri ilə ifadə edilən "bağışlama və tolerantlıq"

anlayışı, İslam dininin əsas qaydalarından birini təşkil edir. İslam tarixinə baxıldığında, müsəlmanların Quran əxlaqının bu əhəmiyyətli xüsusiyyətini ictimai həyata necə keçirdikləri çox açıq bir şəkildə görülür. Müsəlmanlar çatdıqları hər məqamda səhv davranışı ortadan qaldıraraq azad və tolerant bir şərait yaratmışdır. Din, dil və mədəniyyət baxımından bir-birinə daban-dabana zidd olan xalqların eyni dam altında sülh və əmin-amanlıq içərisində yaşamasını təmin etmiş, özünə tabe olanlara da böyük bir elm, zənginlik və üstünlük qazandırıb. Əsrlərdir mehriban və şəfqətli quruluşları ilə tanınmış olan müsəlmanlar, hər zaman dövrlərinin ən mərhəmətli və ən ədalətli adamları olmuşlar. Bu çox millətli quruluş içərisindəki bütün etnik qruplar, illərlə mənsub olduqları dinləri sərbəst yaşamışlar, həm də dinlərini və mədəniyyətlərini yaşaya biləcəkləri bütün imkanlara da malik olmuşlar.

Həqiqi mənada müsəlmanlara məxsus olan tolerantlıq, ancaq Quranın əmr etdiyi istiqamətdə tətbiq olunanda bütün dünyaya sülh və asayiş gətirir. Belə ki, Quranda: "Yaxşılıqla pislik eyni ola bilməz! (Ey mömin kimsə!) Sən (pisliyi) yaxşılıqla dəf et! (Qəzəbə səbirlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, cəzaya bağışlamaqla cavab ver!) Belə olduqda aranızda düşmənçilik edən şəxsi, sanki yaxın bir dost görərsən![68]". Ayədə bu xüsusiyyətə diqqət çəkilmişdir.

Bütün bunlar, İslamın insanlara etdiyi əxlaq xüsusiyyətlərinin, dünyaya sülh, əmin-amanlıq və ədalət gətirəcək fəzilətlər olduğunu göstərir. Hazırda dünya gündəmində olan və adına "İslami

[68] Fussilət – 34

terror" deyilən barbarlıq isə, Quran əxlaqından tamamilə uzaq, cahil və fanatik insanların, dinlə həqiqətdə heç bir əlaqəsi olmayan canilərin əsəridir. Törətdikləri vəhşilikləri İslam pərdəsi altında yeritməyə çalışan bu şəxs və qruplara qarşı tətbiq olunacaq mədəni həll, həqiqi İslam əxlaqının insanlara öyrədilməsidir. Başqa sözlə, İslam dini və Peyğəmbər əxlaqı, terrorizmin və terrorçuların müdafiəçisi deyil, yer üzünü terrorizm bəlasından qurtaracaq çarədir.

İslam, sülh və barışıq deməkdir. Müsəlman da sülh və barışığa çatmış, sülh və barışığa xidmət edən kimsə deməkdir. Uca Allahın bir adı da Salamdır. Buna görə O, sülh və barışıq mənbəyidir. Ona təslim olan müsəlman, sülh və barışıq qaynağına bağlanmaqla öncə öz iç dünyasında rahatlıq və sükunətə qovuşan, sonra da tanış olduğu bu əmin-amanlığı xarici dünyasına daşımaq arzusunda olan şəxs deməkdir. Həqiqətən də yaxşı müsəlman, ən mənfi şərtlərdə də yaşasa, hər cür stress, depressiya və daxili əmin-amanlığı zədələyən duyğulardan uzaq qalmağa çalışır.

Eyni şəkildə müsəlmanın bir adı da "hüquq-mühafizə və etibar sahibi" mənasında “Mömindir”. Uca Allahın bir adı da Mömindir. Beləliklə, güvən qaynağı Allaha inanan, Ona bağlanan mömin, öz iç dünyasında ardıcıl, əmin-amanlıq olan və iç dünyasında yaratdığı bu etimad mühitini xarici dünyaya daşıyan kimsə deməkdir. Bu səbəbdən inanan insanın varlığı, hər kəs üçün xeyirdir. Belə ki, Quran, İslam cəmiyyətindən bəhs edərkən belə buyurur: “(Ey müsəlmanlar!) Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz (onlara) yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız. Əgər kitab əhli də (sizin kimi) iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı.

Onların da içərisində bəzi iman gətirən şəxslər vardır, lakin çox hissəsi haqq yoldan çıxanlardır[69]".

İslam dininin sahibi olan Uca Allahın bir adı da Vəduddur (Hud 11/90). Vədud, çox sevən və sevilən mənasındadır. Bəli, Uca Allah, sevgi mənbəyidir. Sevgini O yaratmış və bizim özümüzə də "Öz Ruhundan" üfürərkən, sevgini O, yerləşdirmişdir. İbn Ərəbinin dediyi kimi, "Biz sevgidən sudur etdik, sevgi ilə yaradıldıq, sevgiyə doğru yönəldik və sevgiyə verdik könlümüzü[70]".

Necə ki, bir ayədə belə buyurulmuşdur: "Rəbbinizdən bağışlanmağınızı diləyin və Ona tövbə edin. Həqiqətən, Rəbbim (bəndələrinə) rəhm edəndir, (onları çox) sevəndir![71]".

Məhz özü hər cəhətdən gözəl olan və gözəli sevən Uca Allah, xilqətlərə sevgi yerləşdirmiş və onun söz və hərəkətlərə əks olunmasını təmin etmək üçün sevgi saçan peyğəmbərlər göndərmiş, sevməyi və sevilməyi təmin edən düsturlar məcmuəsi kitablar endirmişdir. Son olaraq da Peyğəmbərimizi göndərərək, "bir-birini yemək sırtlanları keçmiş" olan insanlardan, bir-birini sevən, başqasını özündən üstün tutan müsəlmanlar yetişdirib. Bu mövzudakı bir çox ayədən ikisi belədir: "Hamılıqla Allahın ipinə (dininə, Qurana) möhkəm sarılın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən. O sizin qəlblərinizi (islam ilə) birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş

[69] Ali İmran – 110
[70] İbnul-Arabi, 1998-38
[71] Hud – 90

oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən O, sizi oradan xilas etdi. Allah Öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, haqq yola yönəlmiş olasınız![72]".

Quran ayələrinə baxanda müqəddəs İslam dininin sülh, qardaşlıq və sevgi üzərində qurulduğunu açıq və aydın şəkildə görürük. Müsəlmanlarla qeyri-müsəlmanlar arasında dialoq və əlaqələr sülh və barış prinsipinə əsaslanır. İslam heç bir zaman tərəfdarlarının digər din və məzhəb mənsublarına əziyyət edib inanclarından dolayı onların öldürülməsinə icazə verməmişdir. Əksinə sevgi və şəfqət Peyğəmbəri (s) hər zaman müsəlmanlardan, digər din və inanc mənsubları məsələsində ədalət və insafı qorumalarını istəmişdir. Müqəddəs İslam dini insanlara dəyər vermişdir. Buna görə də qeyri-müsəlmanlar da insani dəyərlərdə müsəlmanlarla bərabərdirlər. İslam insanları əqidə baxımından kateqoriyaya ayırmazdan əvvəl, onlara insan olduğu üçün dəyər verir.

Həzrət Əli (ə) Misirə vali kimi Malik Əştəri göndərən zaman yazdığı fərmanda həzrət İslamın insanların din və inancından əvvəl insanlığına verdiyi dəyərə diqqət çəkmişdir. Qanunlar toplusunda yer alan bu cümlə İslamın bəşəriyyətə verdiyi qiyməti şərh edir:

"Xalqına yaxşı davranmağı qəlbinə yerləşdir, onları sevməyi və onlara yaxşılıq etməyi prinsip tut! Onlara qarşı qalibiyyəti qənimət

[72] Ali İmran – 103

bilən yırtıcı bir canavar kəsilmə. Çünki insanlar iki cürdür; Ya dində sənə qardaşdır və ya yaradılışda səninlə bərabərdirlər73".

İslam sülh və sülhü şüar tutaraq din, əqidə və məzhəb ayrı-seçkiliyi etmədən hər kəsi birlik və bərabərlik içində rahat bir şəraitdə yaşamağa dəvət etmişdir.

İslam və Quran məntiqi ilə sülh və barış, öz başına bir dəyər və hədəfdir. İslam və müsəlmanlara gözlə görülən bir zərər verilmədiyi müddətcə sülh və barış ön planda tutulur. Sülh öz başına dövlətinin məsləhəti deməkdir. Çünki insanların həyatı əbədi harmoniya içindədir. Sülh və dinc şəraitdə insanların haqq və həqiqəti görmə və anlama imkanı daha çoxdur. Qurani-Kərim, sülh və barışla hədəfə daha rahat və sürətli çatacağımızı söyləmişdir.

---

[73] Nəhcül-bəlağə, məktub 53

# QURANİ-KƏRİM VƏ SÜLH

Qurani-Kərimdən şəfqət və mərhəmət peyğəmbəri Həzrət Məhəmmədin (s) hədəf və təbliğatını daha yaxşı tanıyaq, din və şəriətinin qılınc və müharibə yönlü deyil, sülh, barış və gözəl əxlaqla yayıldığını görməyimizə yardımçı olacaq sülh və barış haqqındakı ayələrindən bir neçəsini zikr etməklə kifayətlənirik:

[يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ ادْخُلُواْ فِي السِّلْمِ كَآفَّةً وَلاَ تَتَّبِعُواْ خُطُوَاتِ الشَّيْطَانِ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ]

"Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə (islama) gəlin! Şeytanın yolu ilə getməyin, çünki o sizin açıq düşməninizdir![74]".

Ayədə keçən "Kaffə" kəlməsində də aydın olduğu kimi sülh və barış qanununda heç bir istisna yoxdur. Buna görə də müharibə İslam əxlaq və təlimlərinə tərsdir. Sülhə və təhlükəsizliyə zərər verib, kölgə salan hər bir hərəkət şeytani bir aksiya kimi tanninmışdır.

[وَإِن جَنَحُواْ لِلسَّلْمِ فَاجْنَحْ لَهَا وَتَوَكَّلْ عَلَى اللّهِ إِنَّهُ هُوَ السَّمِيعُ الْعَلِيمُ]

Əgər onlar sülhə (barışığa) meyl etsələr, sən də sülhə meyl et və Allaha bel bağla. Həqiqətən, O (Allah hamınızın sözlərini) eşidəndir, (niyyətlərinizi) bilәndir[75]!

[فَإِنِ اعْتَزَلُوكُمْ فَلَمْ يُقَاتِلُوكُمْ وَأَلْقَوْاْ إِلَيْكُمُ السَّلَمَ فَمَا جَعَلَ اللّهُ لَكُمْ عَلَيْهِمْ سَبِيلاً]

---

74 Bəqərə - 208

75 Ənfal – 61

Əgər onlar sizdən aralanıb bir tərəfə çəkilsələr və sizinlə vuruşmayıb sülh təklif etsələr, o zaman Allah sizin üçün onların əleyhinə çıxmağa heç bir yol qoymaz[76].

Ayənin enmə səbəbi bizə Peyğəmbərimizin sülhə nə qədər əhəmiyyət verdiyini göstərir. "Eşca" qəbiləsindən bir qrup Mədinə yaxınlarına gəldi. Allah Rəsulu onlara bir elçi göndərərək hansı məqsədlə gəldiklərini soruşdu. Onlar: "Biz, Məhəmmədlə sülh və barış imzalamağa gəlmişik" dedilər. Şəfqət və mərhəmət Peyğəmbəri (s) dərhal onlara xurma hədiyyə göndərərək sülh və barış imzalayıb[77].

[وَلاَ تَقُولُواْ لِمَنْ أَلْقَى إِلَيْكُمُ السَّلاَمَ لَسْتَ مُؤْمِنًا تَبْتَغُونَ عَرَضَ الْحَيَاةِ الدُّنْيَا]

"Sizə müsəlman olduğunu bildirən (salam verən) bir kimsəyə dünya həyatının puç mənfəətinə tamahsılanaraq: "Sən mömin deyilsən!" deməyin! Halbuki çox qənimətlər Allah yanındadır[78]".

Bu ayənin əmri ilə qeyri-müsəlmanların sülh və barış çağırışına böyük maddi gəlirlərdən məhrum qalmaq bahasına da olsa müsbət cavab verilməlidir. Çünki İslamiyyətin müharibə və cihad məqsədi mal, mülk yığma və torpaq genişləndirmək deyil.

Müsəlmanlar, qeyri-müsəlmanların xəyanət və tələlərindən yüz faiz əmin olmadıqları müddətcə onların sülh və barış tələblərinə müsbət yanaşmalıdırlar.

---

[76] Nisa – 90
[77] Peyam Quran, c.10, s.367 (Məkarim Şirazi)
[78] Nisa – 94

[يَا أَيُّهَا النَّاسُ اتَّقُواْ رَبَّكُمُ الَّذِي خَلَقَكُم مِّن نَّفْسٍ وَاحِدَةٍ]

Ey insanlar! Sizi tək bir şəxsdən (Adəmdən) xəlq edən, ondan zövcəsini (Həvvanı) yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun[79]!

## QURANİ-KƏRİMDƏ MÜHARİBƏ VƏ CİHAD AYƏSİ

Qurandakı cihad və müharibə ayələrini görən ancaq məqsədini dərk etməyən və yaxud təhrif edən hirsli bəzi İslam düşmənləri, İslamın müharibə və cihadı müdafiə etdiyini irəli sürürlər. İddialarına isə bu ayələri dəlil göstərirlər:

[فَإِذَا انسَلَخَ الأَشْهُرُ الْحُرُمُ فَاقْتُلُواْ الْمُشْرِكِينَ حَيْثُ وَجَدتُّمُوهُمْ وَخُذُوهُمْ وَاحْصُرُوهُمْ وَاقْعُدُواْ لَهُمْ كُلَّ مَرْصَدٍ فَإِن تَابُواْ وَأَقَامُواْ الصَّلاَةَ وَآتَوُاْ الزَّكَاةَ فَخَلُّواْ سَبِيلَهُمْ إِنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ]

"Haram aylar (onlara möhlət verilmiş zülhiccə, məhərrəm, səfər və rəbiüləvvəl ayları) çıxınca müşrikləri harada görsəniz, öldürün, yaxalayıb əsir alın, həbs (mühasirə) edin və bütün yollarını - keçidlərini tutun. Lakin əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın (işiniz olmasın). Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir![80]".

Quran elmlərindən az-çox məlumatı olan hər kəs Quran ayələrinin şəri bir hökm xarakterində olması üçün digər ayələrin də nəzərə alınmasının vacibliyini bilir. Çünki Quran ayələri, ümum-has, mütləq və müqəyyəd kimi bir çox qaydalar ehtiva

[79] Nisa – 1
[80] Tövbə - 5

edir. Beləliklə, Qurandakı müharibə və cihad ayələri də bu qanun və qaydalar çərçivəsində qiymətləndirilməlidir.

Yuxarıda zikr edilən ayə digər ayələrlə təfsir etdiyimiz ayənin müharibə və cihada dair bir sıra şərtlər gətirdiyini görməkdəyik.

[وَقَاتِلُواْ فِي سَبِيلِ اللّهِ الَّذِينَ يُقَاتِلُونَكُمْ وَلاَ تَعْتَدُواْ إِنَّ اللّهَ لاَ يُحِبِّ الْمُعْتَدِينَ]

“(Ey möminlər!) Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddən kənara çıxmayın. Allah həddi aşanları sevməz![81]”.

[وَقَاتِلُوهُمْ حَتَّى لاَ تَكُونَ فِتْنَةٌ وَيَكُونَ الدِّينُ لِلّهِ فَإِنِ انتَهَواْ فَلاَ عُدْوَانَ إِلاَّ عَلَى الظَّالِمِينَ]

“Fitnə (müşriklərin fitnəsi) aradan qalxana qədər və din (ibadət) ancaq Allaha məxsus edilənədək onlarla vuruşun; əgər onlar (bu cür hərəkətlərə) son qoyarlarsa (siz də onlarla vuruşmaqdan vaz keçin!), çünki düşmənçilik ancaq zülm edənlərə qarşı olur[82]”.

Zikr edilən bu iki ayə cihad və savaşla bağlı ayənin yanına qoyanda müqəddəs İslam dininin cihad və müharibəyə yol verdiyi yerlər aydın olacaqdır.

Ey biləndər və vicdan sahibləri, Qurani-Kərimi və Allahın dinini Peyğəmbərdən və davamçılarından öyrənin ki, cahil və düşmənlərin oyunlarına gəlməyib, Qurani-Kərim və Allah-Taala-nın mütləq surətdə müharibə və cihada icazəni vermədiyini başa düşəsiniz.

---

[81] Bəqərə - 190
[82] Bəqərə - 193

## İSLAMIN DÖYÜŞMƏYƏ İCAZƏ VERDİYİ YERLƏR

1-Sizə qarşı savaş açanlara qarşı savaşın.

2-Fitnə tamamilə məhv edilib din Allahın olana qədər vuruşun.

Uca İslam dini, insanların azadlığını əlindən alan, onları vətənlərindən zorla çıxaran, ölkələrin milli sərvətlərinə göz dikən, yer üzündə fitnə-fəsad çıxaran əzazil və müstəmləkəçilərə qarşı vuruşmağı əmr edir. İslam dini bu cani və qatillərə belə mərhəmət və şəfqətini göstərmiş və müsəlmanlara "Sizi öldürmək istəyən və fitnə çıxaranlara qalib gələrkən ifrata getməyin, haqsız yerə zülm etməyin" deyə əmr verir.

Soruşmaq lazımdır; Belə rəhmət və şəfqət dolu bir din, müharibə və qılınc dini ola bilərmi?

İslam məntiqi ilə müharibə müstəsna və qeyri-adi bir haldır. İslam yalnız sülh və danışıqlar yolu ilə bir nəticə əldə olunmadığı təqdirdə son çarə olaraq müdafiə etməyə icazə verir. İslamdakı müharibə anlayışı ilə digər inanclarda müharibə anlayışı eyni deyil. İslam məntiqi ilə müharibənin hədəfi, insan öldürmək, ölkə fəth edib torpaq işğal etmək deyil. Müqəddəs İslam dini heç vaxt müharibəni başladan tərəf olmamışdır. Etdiyi bütün müharibələr həmişə müdafiə məqsədli olmuşdur.

İslamda müharibə və cihada icazə verilən yerlər:

**1-Özünü müdafiə məqsədli müharibə**

[وَقَاتِلُواْ فِي سَبِيلِ اللّهِ الَّذِينَ يُقَاتِلُونَكُمْ وَلاَ تَعْتَدُواْ إِنَّ اللّهَ لاَ يُحِبِّ الْمُعْتَدِينَ]

“(Ey möminlər!) Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddən kənara çıxmayın. Allah həddi aşanları sevməz![83]”.

Ayə müsəlmanların vəzifələrini müəyyən etmişdir:

1-Qılınca sarılıb İslam torpaqlarına hücum edilmədiyi müddətcə, müsəlmanlar savaş və qan tökmə hüququna malik deyillər.

**2-Fitnəyi uzaqlaşdırmaq**

[وَقَاتِلُوهُمْ حَتَّى لاَ تَكُونَ فِتْنَةٌ وَيَكُونَ الدِّينُ لِلّهِ فَإِنِ انتَهَواْ فَلاَ عُدْوَانَ إِلاَّ عَلَى الظَّالِمِينَ]

“Fitnə (müşriklərin fitnəsi) aradan qalxana qədər və din (ibadət) ancaq Allaha məxsus edilənədək onlarla vuruşun; əgər onlar (bu cür hərəkətlərə) son qoyarlarsa (siz də onlarla vuruşmaqdan vaz keçin!), çünki düşmənçilik ancaq zülm edənlərə qarşı olur[84]”.

İslami cihad ilə digər ideologiyalardakı cihad arasında böyük fərqlər var. Digər inanc və dinlərdə cihadda mal, sərvət, güc, fəth, qənimət, udma ehtirası və s. mənfi məqsədlər güdülür. İslami cihadda isə hədəf, yer üzündə fəsad törədən, insanların təhlükəsizliyini təhdid edən, ictimai nizamı xaosa sürükləyən, birlik, bərabərlik və qardaşlığa zərər verənlərlə döyüşüb, təhlükəsizliyi təmin etmək, nəticəsində isə Allahın razılığını əldə etməkdir.

İslam dinin tamamilə Allahın olana qədər müharibə edilməsinə icazə veribsə də eyni zamanda bütün dinlərə hörmət və ehtiramı əmr etmişdir. Bütün ilahi dinlərin mənsublarına sülh və əmin-amanlıq içində eyni mühitdə kifayət qədər tədqiq və təhqiq

---

[83] Bəqərə - 190
[84] Bəqərə - 193

imkanı vermişdir. Şirk və bütpərəstlik ilahi bir din və ayin olmadığı üçün heç bir nüfuzu yoxdur. Əksinə, paganizm və bütpərəstlik, ictimai ədalət və bərabərliyi təhdid edən bir xəstəlikdir[85].

**3-Əhdlərinə sadiq qalmayıb pozan və müharibə başladanlarla döyüşmək**

[أَلاَ تُقَاتِلُونَ قَوْمًا نَّكَثُواْ أَيْمَانَهُمْ وَهَمُّواْ بِإِخْرَاجِ الرَّسُولِ وَهُم بَدَؤُوكُمْ أَوَّلَ مَرَّةٍ أَتَخْشَوْنَهُمْ فَاللّهُ أَحَقُّ أَن تَخْشَوْهُ إِن كُنتُم مُّؤُمِنِينَ]

"(Ey möminlər!) Məgər siz andlarınızı (əhdlərini) pozan, Peyğəmbəri (öz yurdundan) çıxardıb qovmaq niyyətində olan, üstəlik sizinlə döyüşə də birinci başlayan bir tayfa ilə vuruşmayacaqsınızmı? Məgər onlardan qorxursunuz? Əgər (həqiqi) möminlərsinizsə, bilin ki, əslində qorxmalı olduğunuz məhz Allahdır![86]".

Ayəti-kərimə həm əhdi və sülh mətnində yer alan şərtlərə sadiq qalmayan, Allahın Peyğəmbərini vətənindən çıxarmaq istəyən və İslam əleyhinə müharibə elan edib başlayanlara qarşı müsəlmanlara özlərini müdafiə üçün icazə vermişdir.

**4- Düşkünlərə və əzilmişlərə yardım**

[وَمَا لَكُمْ لاَ تُقَاتِلُونَ فِي سَبِيلِ اللّهِ وَالْمُسْتَضْعَفِينَ مِنَ الرِّجَالِ وَالنِّسَاء وَالْوِلْدَانِ الَّذِينَ يَقُولُونَ رَبَّنَا أَخْرِجْنَا مِنْ هَذِهِ الْقَرْيَةِ الظَّالِمِ أَهْلُهَا وَاجْعَل لَّنَا مِن لَّدُنكَ وَلِيًّا وَاجْعَل لَّنَا مِن لَّدُنكَ نَصِيرًا]

---

[85] Nümunə Təfsiri, c.2, s.14-16 (Məkarim Şirazi)
[86] Tövbə -13

(Ey müsəlmanlar!) Sizə nə olub ki, Allah yolunda (hicrət etməyib, yaxud əsir kimi Məkkədə qalıb): "Ey Rəbbimiz, bizi əhalisi zalım olan bu şəhərdən (Məkkədən) kənara çıxart, bizə öz tərəfindən mühafizəçi göndər, yardımçı yolla!" - deyə dua edən aciz kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz87?

Bu ayədən də göründüyü kimi, cihadın ilahi və insani olmaq üzrə iki əsas məqsədi vardır; İlahi hədəfdə məqsəd iman və ilahi dəyərlərin yayılması, insani hədəfdə məqsəd isə haqsızlığa və zülmə məruz qalmış qadınlar, uşaqlar və yaşlılara yardım etməkdir.

**5-Vətən və ərazi bütövlüyü üçün döyüşmək**

أُذِنَ لِلَّذِينَ يُقَاتَلُونَ بِأَنَّهُمْ ظُلِمُوا وَإِنَّ اللَّهَ عَلَى نَصْرِهِمْ لَقَدِيرٌ الَّذِينَ أُخْرِجُوا مِن دِيَارِهِمْ بِغَيْرِ حَقٍّ إِلَّا أَن يَقُولُوا رَبُّنَا اللَّهُ وَلَوْلَا دَفْعُ اللَّهِ النَّاسَ بَعْضَهُم بِبَعْضٍ لَّهُدِّمَتْ صَوَامِعُ وَبِيَعٌ وَصَلَوَاتٌ وَمَسَاجِدُ يُذْكَرُ فِيهَا اسْمُ اللَّهِ كَثِيرًا وَلَيَنصُرَنَّ اللَّهُ مَن يَنصُرُهُ إِنَّ اللَّهَ لَقَوِيٌّ عَزِيزٌ

"Zülmə məruz qaldıqlarına görə vuruşanlara (kafirlərə qarşı Allah yolunda döyüşməyə) izin verilmişdir. Allah onlara kömək etməyə, əlbəttə, qadirdir!".

"O kəslər ki, haqsız yerə, ancaq "Rəbbimiz Allahdır" – dediklərinə görə yurdlarından (Məkkədən) çıxarıldılar. Əgər Allah insanların bir qismini digər qismi ilə (müşrikləri möminlərlə) dəf etməsəydi, sözsüz ki, içərisində Allahın adı çox zikr olunan

[87] Nisa – 75

soməələr (rahiblərin yaşadığı monastırlar), kilsələr, məbədlər (yəhudi məbədləri) və məscidlər dağılıb gedərdi (darmadağın edilərdi). Allah Ona (öz dininə) yardım edənlərə, şübhəsiz ki, yardım edər. Həqiqətən, Allah yenilməz qüvvət, qüdrət sahibidir![88]".

Yuxarıda zikr edilən hər bir ayə İslamda müharibə və cihad icazənin verildiyi yerləri bəyan edir. İslamın müharibə və qan dini olduğunu deyənlər bir az vicdan və insafla hadisəyə baxacaq olsalar, İslamın müharibə və qılınca qarşı olduğunu və çox çətin vəziyyətdə və məcbur olmadıqca buna imkan vermədiyini görəcək. Əksinə, heç bir ideologiya İslam qədər sülh və təhlükəsizliyə əhəmiyyət verməmişdir. Uca İslam dini və onun şəfqətli Peyğəmbəri (s) insani dəyərlərin qorunması, ibadətgahların (məscid, kilsə, sinaqoq) yaşadılması və azad iradənin mənfəəti üçün mübarizə aparmışdır. Qərəzdən uzaq, vicdanlı və azad insanlara deyirik ki:

İndi də XXI əsrdəki müharibələrlə Peyğəmbərimizin etdiyi müharibələri bir müqayisə edin və aralarındakı fərqləri görün!

İslam dininin müharibə və qılınca söykənən bir inanc olduğunu deyənlər bu gün sözdə sülh və demokratiya tərəfdarı olan qərblilərin Əfqanıstan, Fələstin, İraq, Bəhreyn, Yəmən və daha bir çox ölkəyə hücum edib işğal etmələrini, insanların azadlığına ipoteka qoymalarını, milli mənfəətlərinə hakim olmalarını, müdafiəsiz və günahsız uşaqların, qadın və kişiləri qətliam etməsini görmürlərmi?

---

[88] Həcc – 39-40

Kütlələrin maraqlar uğrunda qətlə yetirilməsi, günahsız insanların amansızcasına öldürülməsi bu yalançı demokratiya iddiaçılarının əsl simalarını bütün çılpaqlığı ilə ortaya qoyur. Maraqlı olanı isə vətən və torpaqları işğal edilmiş və zülm altında əzilmiş xalqın, öz vətən və torpaqlarını müdafiə etmələri şiddət və sərtlik kimi təqdim edilir.

## DÖRDÜNCÜ BÖLÜM

# QEYRİ-MÜSƏLMANLAR HAQQINDA PEYĞƏMBƏRİN (s) SÖZLƏRİ VƏ MÖVQEYİ

Peyğəmbərdən (s) nəql olunan hədis və rəvayətləri diqqətlə oxuyanda həzrətin digər din mənsubları ilə sevgi, hörmət və sülh içində yaşamaq istədiyini, onlarla yaxşı uyğunlaşıb rahat şəraitin yaranması üçün çalışıb səy göstərdiyini görürük. İslam fitrət dinidir, ona görə də fitrət dinin də insanın yaradılışına zidd müddəalar yoxdur. Şəfqət Peyğəmbəri (s) hər zaman gözəl əxlaqı, şəfqət və məhəbbətilə İslam əlehdarlarıyla  rahat və dinc bir mübahisə yaratmışdır. Din liderləri, tərəfdarlarına daim insaf, ədalət, haqq sahibinin haqqını əda etməyi və insanlara ədalətsizlikdən və təzyiqdən uzaq dayanmalarını tövsiyə etmişlər.

Bu məsələ ilə bağlı müqəddəs İslam dininin sevimli peyğəmbərindən bir neçə sitata diqqət edək:

1-Zimmə89 (İslam hökuməti damı altında yaşayan yəhudi, xristian və zərdüştlərə deyilir) əhlinə əziyyət edənin düşməni mən olaram və mən kimin düşməni olsam, qiyamət günü onun düşmənçiliyi aşkar edərəm.

2-Kim müsəlmanlarla əhd və sülh imzalayan müsəlmana haqsızlıq edər və gücündən artığını ona yükləsə, qiyamət günü onun düşməni mən olaram.

3-Zimmiyə əziyyət verən mənə əziyyət edibdir.

4-Hər kim müsəlmanlarla sülh edən müsəlmana zülm edib hüququndan məhrum etsə və ya gücündən artığını ona yükləyir

---

[89] Zimmi: İslam hökuməti altında yaşayan yəhudi, xristian və zərdüştlərə deyilir.

və onun razılığı olmadan ona məxsus şeyi alarsa, qiyamət günü düşməni mən olaram.

5-Hər kim İslam bayrağı altında zimmiyə böhtan atır və təhqir etsə, qiyamət günü odlu qırmancla cəzalandırılacaqdır.

6-İlahi dinlərə mənsub bütün kasıblara sədəqə verin.

7-Rəsuli Əkrəm: "Xalqın ən pisini sizə xəbər verimmi"? Soruşduqda: -"Bəli, bəli Peyğəmbər" - deyə ərz edərkən belə buyurdu: "Xalqın ən pisi, yalnız sakin olan, yardımını xalqdan əsirgəyən və köləni qamçılayan şəxsdir"[90].

8-Allah Rəsulu buyurur: "İnsanların ən pisi, insanları sevməyən və xalq tərəfindən sevilməyəndir[91]".

9-Peyğəmbərimiz (s) bütün insanların bərabər olduğunu daraq dişlərinə bənzədərək buyurur: "İnsanlar darağın dişləri kimi bərabərdirlər[92]".

10-Sevgili Peyğəmbərimiz (s) buyurur ki: "İnsanların hamısı Adəm övladlarıdır. Adəm (ə) isə torpaqdan yaradılıb[93]".

11-Allah Rəsulu buyurur (s): "İnsanlar qızıl və gümüş mədənləri kimidirlər[94]".

12-Seyf bin Amir rəvayət edir: İmam Cəfər Sadiqi (ə) dinləyən biri mənə belə izah etdi: Allah Peyğəmbərinə (s) "Allah qatında insanların ən istəklisi kimdir"? - deyə soruşanda:- "İnsanlara ən çox faydalı olanı" deyə buyurdu[95].

13-Bir gün Allah Rəsulu (s) Mədinədə yəhudi birinin dəfn mərasimində iştirak edib. Səhabələrindən bir qrupun bundan narahat olduqlarını görəndə onlara xitabən belə soruşdu: Soru-

---

90 Töhəful-Uqul, s.37
91 Töhəful-Uqul, s.37
92 *Nəhcül-Fəsaha*, s.657, h.3492
93 *Kənzul-Ummal*, c.15, s.548, h.42116
94 *Nəhcül-Fəsaha*, s.657, h.3493
95 Üsulu Kafi, c.2, s.312, h.2026 (Türkcəsi)

şuram sizdən ki, bu yəhudi insan deyilmi? Rəsulullahın (s) bu sualına kimsə cavab vermədi, susdu.

14-Allah Rəsulu (s) üç dəfə "Allaha and olsun ki, mömin ola bilməz" deyəndə "Kim mömin ola bilməz"? Deyə soruşanda "Qonşusu onun şərrindən əmin olmayan kimsə" buyurdu.

15-Düşmənlə qarşı-qarşıya gəlməyi arzulamayın; Davamlı uca Allahdan sülh və barış diləyin.

16-Uca Allah əmin-amanlıq və sülh üçün verdiyi mükafat və savabı müharibə və sərtliyə verməmişdir.

17-Rəsuli Əkrəm (s) davamlı belə dua edərdi: "Allahım, şəhadət edirəm ki, bütün insanlar qardaşdır".

18-Peyğəmbərimiz insanların bərabərliyi haqqında belə buyurur: "İnsanlar bir darağın dişləri kimidirlər"[96].

19-Peyğəmbərimiz (s) vida həccində belə buyurdu: "Ey insanlar! Rəbbiniz birdir, atanız birdir, hamınız Adəmin (ə) övladlarısınız. Adəm də (ə) torpaqdan yaradılmışdır. Ərəbin əcəmdən bir üstünlüyü yoxdur. Üstünlük ancaq təqva ilədir[97]".

20-Uca Allah bəndələr arasında özünü üstün və uca görəni sevməz.

21-Ən xeyirli iş, insanların arasında mehribanlıq yaratmaqdır.

22-Bir-birinizlə əlaqə yaradın ki, bir-birinizə qarşı şəfqətli olasınız.

23-İnsanların ən ağıllısı, başqaları ilə yaxşı yola gedəndir.

24-Mən, inanan və inanmayanlara zülm etmək üçün göndərilmədim.

---

[96] Töhəful-Uqul, s.368

[97] Tarixi Yaqubi, c.2, s.110

# MÜNDƏRİCAT

ÖN SÖZ ..... 3

HƏZRƏT ƏLİNİN (Ə) DİLİNDƏN PEYĞƏMBƏRİMİZİN (S) VƏSFİ ..... 9

QEYRİ-MÜSƏLMANLARLA SÜLH İÇİNDƏ YAŞAMAQ ..... 17

PEYĞƏMBƏRİN (s) YAŞAYIŞINDA ŞƏFQƏT ..... 18

RƏHMƏT VƏ SEVGİ MÜJDƏÇİSİ ..... 21

PEYĞƏMBƏRİMİZİN (s) GÖZƏL DAVRANIŞI ..... 23

PEYĞƏMBƏRİMİZİN (s) BÜTÜN BƏŞƏRİYYƏTƏ NÜMUNƏVİ ƏDALƏTİ ..... 25

PEYĞƏMBƏRİMİZİN (s) PADŞAHLARA MƏKTUBLARI ..... 30

MİSİR PADŞAHINA MƏKTUBU ..... 30

RUM KRALI KAYSERƏ MƏKTUBU ..... 31

HƏBƏŞİSTAN KRALINA MƏKTUBU ..... 33

HƏBƏŞ KRALININ CAVABI ..... 34

NECCAŞİNİN PEYĞƏMBƏRİMİZƏ (S) MƏKTUBU ..... 35

PEYĞƏMBƏRİMİZİN (s) SÜLH MESAJLARI ..... 38

PEYĞƏMBƏRİMİZİN (s) SÜLHƏ VƏ QARDAŞLIĞA QARŞI HƏSSASLIĞI ..... 39

PEYĞƏMBƏRİMİZİN (s) SÜLH VƏ BARIŞ SAZİŞLƏRİ ..... 40

MƏDİNƏ KONVENSİYASI ..... 41

MƏDİNƏDƏ MÜSƏLMANLAR ARASINDA YAZILAN SÜLH MÜQAVİLƏSİNİN MƏTNİNDƏ YER ALAN MÜSƏLMANLARIN VƏZİFƏLƏRİ: ..... 42

MƏDİNƏDƏ MÜSƏLMANLARLA YƏHUDİLƏR ARASINDA BAŞ VERƏN SÜLH MÜQAVİLƏSİNDƏ YER ALAN MÜSƏLMANLARIN VƏ YƏHUDİLƏRİN VƏZİFƏLƏRİ: ..... 43

HUDEYBİYƏ SAZİŞİ ..... 44

HUDEYBİYƏ MÜQAVİLƏSİNİN MADDƏLƏRİ ........ 45

PEYĞƏMBƏRİMİZİN (S) EYLƏ XRİSTİANLARIYLA SÜLHÜ ........ 46

PEYĞƏMBƏRİMİZİN (S) SİNA XRİSTİANLARI İLƏ SÜLHÜ ........ 47

PEYĞƏMBƏRİMİZİN (s) MÜXALİFLƏRİLƏ DAVRANIŞI ........ 48

ALLAH PEYĞƏMBƏRİNİN (S) QƏDDAR QÜREYŞ MÜŞRİKLƏRİNƏ RƏFTARI ........ 49

PEYĞƏMBƏRİMİZİN YƏHUDİLƏRƏ QARŞI DAVRANIŞI ........ 55

PEYĞƏMBƏRİMİZİN (s) YƏMƏNİN YƏHUDİ VƏ XRİSTİANLARINA MÜNASİBƏTİ ........ 56

PEYĞƏMBƏRİMİZİN (s) NÜMUNƏVİ SƏBRİ ........ 57

PEYĞƏMBƏR (s) VƏ YƏHUDİ TƏHSİL MƏRKƏZİ ........ 58

YƏHUDİLƏRİN SUİ-QƏSDLƏRİ ........ 60

QURANİ-KƏRİM VƏ SÜLH ........ 74

QURANİ-KƏRİMDƏ MÜHARİBƏ VƏ CİHAD AYƏSİ ........ 76

İSLAMIN DÖYÜŞMƏYƏ İCAZƏ VERDİYİ YERLƏR ........ 78

QEYRİ-MÜSƏLMANLAR HAQQINDA PEYĞƏMBƏRİN (s) SÖZLƏRİ VƏ MÖVQEYİ ........ 84